Bu bir xalq qəzetidi
ƏDALƏT

## Müdafiə Nazirliyi Gəncədə eşidilən partlayış səslərinin səbəbini açıqladı



**Azərbaycan Ordusunun Mühəndis-İstehkam Qoşunlarının bölmələri istismar müddəti başa çatmış və istifadəyə yararsız olan minaların Seyfəli poliqonunda utilizasiyasını həyata keçirir.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Nazirlik aparılan partlayış işləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və bildiririk ki, narahatlığa heç bir əsas yoxdur.

Qeyd edək ki, sosial şəbəkələrdə Gəncədə partlayış səslərinin eşidilməsi ilə bağlı məlumat yayılmışdı.

## DTX tərəfindən həbs edilən sabiq icra başçısının vəziyyəti necədir?

**"Biləsuvar Rayon İcra Hakimiyyətinin koronavirusa yoluxan və həbsdə olan sabiq başçısı Mahir Quliyevin vəziyyəti stabil ağır olaraq qalır".**

Bununla bağlı Oxu.Az-a açıqlamasında onun vəkili məlumat verib. O bildirib ki, həkimlərin dünən verdiyi məlumata görə, M.Quliyevin vəziyyəti dəyişməz olaraq qalır. Xatırladaq ki, M.Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılıb və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib. Ona, Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib.

## Əhməd İsmayılov: "Media haqqında yeni qanun layihəsi artıq yekunlaşmaq üzrədir"



**Media haqqında yeni qanun layihəsi artıq yekunlaşmaq üzrədir. Adalet.az-ın məlumatına görə, bunu Baş Prokurorluq və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə "Media və Hüquqi Maarifləndirmə" mövzusunda keçirilən tədbirdə MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov deyib.**

O qeyd edib ki, hazırlanan yeni qanun layihəsi aidiyyəti üzrə təqdim ediləcək. Ə.İsmayılov, həmçinin bildirib ki, Azərbaycanın tarixi zəfəri regionda yeni reallıq yaradıb: "Yaranan yeni reallığın dünya ictimaiyyətinə çatdırılması medianın üzərinə düşür.

## Mövlud Çavuşoğludan Ermənistana xəbərdarlıq



**"Ermənistan vaxtilə işğal altında saxladığı və Vətən müharibəsi nəticəsində azad edilən Azərbaycan ərazilərində hər şeyi yerlə-yeksan edib, yandırıb, dağıdıb. Ancaq bu gün Azərbacan hökuməti Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda xeyli işlər görüb. Əminəm ki, Azərbaycan dövləti həmin əraziləri yenidən bərpa edəcək və ora həyat qayıdacaq".**

Bunu "Report"un ABŞ bürosuna müsahibəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir vurğulayıb ki, Türkiyə Azərbaycana əlindən gələn dəstəyi verir və gələcəkdə də verəcək:

"Ancaq Qarabağda yenidənqurma işlərinin sürətlənməsi üçün ermənilər tərəfindən həmin ərazilərdə basdırılan minaların təmizlənməsi lazımdır.

Bunun üçün kifayət qədər texnologiya da var. Ancaq həmin ərazilərdə minaların harada basdırıldığı məlum deyil. Ermənilər minalanmış ərazilərin bəzilərinin xəritələrini Azərbaycana veriblər, ancaq digərlərini hələ də verməyiblər.

Hesab edirəm ki, Ermənistanın ən qısa zamanda bu məsələləri asanlaşdırmaq, sülh və əməkdaşlıq münasibətlərini normallaşdırmaq istiqamətində müsbət addımlar atması lazımdır. Ermənistan həmin ərazilərdə basdırdığı bütün mina xəritələrini ən qısa zamanda Azərbaycana verməlidir.

Çünki ərazilər minalardan təmizlənməlidir ki, insanlar öz yurd-yuvalarına dönərkən həyatlarını itirməsinlər. Can Azərbaycan heç vaxt tək olmayıb və biz heç bir vaxt Azərbaycanı tək buraxmayacağıq. Bunu hər kəs bilsin!"

*Faiq QİSMƏTOĞLU,*
*Əməkdar jurnalist*

## Böyük xalq sevgisi

Bax: səh.3

## Aqil Abbas: "Şiəliklə siyasi şiəlik fərqlidir"



**"Din xadimlərinin İran-Azərbaycan münasibəti ilə bağlı danışmasını ummuram. Açığı heç onların danışmağını da istəmirəm".**

Bunu İran-Azərbaycan arasında gərginliyə din xadimlərinin səssiz qalmasına münasibət bildirən millət vəkili Aqil Abbas Yenicag.az-da deyib.

Aqil Abbas bildirib ki, din xadimləri danışmaqdansa yaxşı fatihə verə bilirlər:

"Azərbaycanlı din xadimləri İrana fatihə verə bilərlər. Danışmaqlarına lüzum yoxdur".

Millət vəkili şiəliklə siyasi şiəliyə fərqli münasibət göstərilməli olduğunu deyərək, siyasi şiəliyə görə şiələrin hədəfə çevrildiyini deyib:

"Biri var şiəlik, biri də var siyasi şiəlik. Özüm şiəyəm. Siyasi şiəlik SSRİ-nin kommunist partiyası kimidir. İran şiəliyi siyasidir. Müxtəlif qruplar şiəliyə qarşı hücuma keçiblər. Azərbaycanın böyük hissəsi şiədir.

Onların nə günahı var? Siyasi şiələrə hücum etmək lazımdır. Siyasi şiəliyi təbliğ edənlərlə mübarizə aparmaq lazımdır. Bir mollanın, din xadiminin dediyindən Azərbaycanın tanınmış bir yazıçısının, bəstəkarının, ziyalısının, jurnalistinin dediyi yüz qat artıqdır".

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 87 (5919) 14 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

*M. Məmmədov*

## Azərbaycanın qələbəsi Ermənistandan çox İranı yandırıb

Bax: səh.2

# "Notadan sonra İrandan Qarabağa girən yük maşınlarının sayı artdı"



Bax:səh-2

## Dağın başındakı ikinci keçini tapa bilmədim



**Deməli, belə. Bizim bir eloğlu çıxmışmış dağlara və dağın başında bir keçi tapır. Və sevinə-sevinə gətirir evə. Ondan sonra hər gün yenə həmin yerə gedirmiş ki, bəlkə bir keçi də tapdı, amma heç vaxt ikinci keçini tapa bilmir.**

Dünən Azərbaycan-Serbiya oyununa baxanda bu lətifə yadıma düşdü. Serbiyanın qapıçısı topu verdi bizim oyunçuya və bir qol vurduq. Sevincimizin həddi-hüdudu yox idi və özümü həmin eloğlum kimi dağın başında keçi tapan kimi hiss elədim.

Və oyunun sonunacan həsrətlə gözlədim ki, Serbiyanın qapıçısı ikinci bir "keçi" də verəcək bizə, amma namərd vermədi.

## DİN-dən məktəblərdən uşaqların oğurlanması xəbərinə reaksiya



**Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə və vatsap qruplarında məktəblərdən uşaqların oğurlanması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.**

DİN-in Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev Adalet.az-a bildirib ki, hazırda vatsap qruplarında yayılan səs yazıları ilə bağlı araşdırma aparılır: "Bu, tamamilə yalan və cəfəngiyyatdır, təxribat məqsədi daşıyır. DİN-ə səs yazısında iddia olunan hallarla bağlı hər hansı şikayət, yaxud müraciət daxil olmayıb. Vətəndaşlara tövsiyə edirik ki, bu kimi faktsız iddialara inanmasınlar".

Qeyd edək ki, son günlər məktəblərdən uşaqların oğurlanması ilə bağlı sosial şəbəkələrdə və vatsap qruplarında səs yazıları yayılır. Bildirilir ki, Bakı və Sumqayıt ərazisində məktəblərdə uşaqların oğurlanmasına cəhd halları baş verir.

*Bu gün Məmməd Arazın doğum günüdür*

## İLHAMIM



*Xudu Məmmədova*

*Yenə dağ döşündə dənərləndi qar,*
*Yenə zirvələrin həsrətində qal,*
*Sel qopdu, dərəyə düşdü qalmaqal...*
*Bir ocaq başında bir isinməsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

*Şimşək yelkəninə qoşulu anlar,*
*Göy bizi yamanlar, yer bizi danlar.*
*Görüm ayılmaya gec ayılanlar...*
*Dolular qırımlı, daşlar döyənək...*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

*Bax donqar dəvənin səbət yükünə,*
*Bənzəyir içi boş şöhrət yükünə.*
*Ömür karvanının sənət yükünə*
*Bir-iki qeyrətli söz yükləməsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

*Tarix qayalarda yazı qalırmı?*
*Çoxu çoxdan itib, azı qalırmı?*
*Dağ öz duruşundan razı qalırmı?*
*Yalan-yarğanlara nağıl söyləsək,*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

*Bu dağlar qardaşım, bu çaylar bacım,*
*Özündən gəlməyən özündən qaçır.*
*Zaman qapımızda əlində qayçı...*
*Hər adi ölçüyə, ülgüyə gəlsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

*Keçək dərələrin boğanağından,*
*Keçək dolayların doğanağından,*
*Günəşin zirvədə doğan anından*
*Nur alıb, bu yurda səpələməsək*
*Sən kimə gərəksən,*
*Mən kimə gərək?!*

## ALLAHIN ALTINDA O AĞBAŞDAN 10 NƏFƏR DƏ OLAYDI



**Deməli, Ağdamın "Qarabağ" komandasında Mişa adında (əsl adını bilmirəm, Mişa deyirdilər) bir futbolçu vardı. Bu Mişa Moskvanın hansısa, "Dinamo"nunmu, "Spartak"ınmı oyunçusu idi. Nə qələt eləmişdisə 2-3 il iş vermişdilər və Şahbulaqdakı 8-ci kalonda yatırdı. Amma ona icazə vermişdilər ki, formasını saxlamaq üçün "Qarabağ" komandasında oynasın.**

Oyun başlamamışdan bir saat əvvəl həbsxana maşınında gətirirdilər stadiona. Bir az məşq edirdi, sonra çıxırdı oyuna. Cavan, ağbaş bir oğlan idi. Qeyri-adi, gözəl futbol oynayırdı. Və təbii ki, çox adam, xüsusilə kənddən gələn azarkeşlər onun kimliyi haqqında məlumatsız idilər.

Oyun gedir. Bu "Ağbaş" Mişa da təxminən Streltsov kimi oynayır.

Yanımda oturan bir ağsaqqal elə yazıq-yazıq dedi ki:

***- Kaş bu Ağbaşdan on nəfər də olaydı.***

O, "dənə" dedi, mən "nəfər" yazıram. Dünən Serbiya ilə oyuna baxanda həmin ağsaqqalın sözü yadıma düşdü. Fikirləşdim ki, kaş Şahruddindən 10 nəfər də olaydı.

## Dövlətlərin borcu 88 trilyona çatdı

**Bütün ölkələrin ümumi suveren dövlət borcu 88 trilyon dollara çatıb. Bu məlumatı Beynəlxalq Valyuta Fondu yayıb. Bu göstərici dünyanın ümumi daxili məhsulunun təxminən 100%-nə yaxın olduğu bildirilib.**

Bununla belə gələn il bu rəqəmin bir qədər azalacağı proqnozlaşdırılıb.

BVF dünyanın ümumi borcunun (həm dövlət sektoru, həm də özəl sektor) 226 trilyon dollar təşkil etdiyini qeyd edib.

## MƏDƏNİYYƏT NAZİRİ, BAŞINIZA DÖNÜM...



**Bəlkə Şuşa Mədəniyyət şöbəsini Sumqayıtdan ayırıb müstəqil idarə edəsiniz və keçmiş Dağlıq Qarabağdakı rayonları da ona tabe etdirəsiniz?!**

Axı, Möhtərəm Prezidentin sərəncamı ilə Şuşa Azərbaycanın Mədəniyyət mərkəzi elan edilib.

Və bəlkə keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevin səhvini düzəldəsiniz?!

**Eləməsəniz, siz mənim başıma dönün.**

## BALAM, BİZ NİYƏ ÖLƏK, AXI?!




**Deməli, şəhərdə hər küçədə 10-15 aptek, hər küçədə 10-15 xəstəxana, ümumiyyətlə, həkim, dəllək müştəridən çox olan kimi, xəstədən çoxdu. Bəs, onda biz niyə ölək axı?!**

Yaşasın Azərbaycan Səhiyyə Nazirliyi! Yaşasın TƏBİB! Yaşasın Tibbi Sığorta Təşkilatı! Və yaşasın hər oliqarxın pul qazanmaq üçün tikdirdiyi klinikalar və həmin klinikaların reseptləri ilə dərman alveri ilə məşğul olan apteklər!

## Oxucuların nəzərinə

**Oktyabr ayından "Ədalət" qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## GUYA O QANUNİ YÜKDAŞIYAN OLSAYDI QƏZA TÖRƏTMƏYƏCƏKDİ?



**Deməli, Mərdəkan yolunda çox dəhşətli bir qəza baş verib. Artıq bu haqda məlumatınız o qədərdir ki, mənim deməyim artıqdır. Yük maşını sərnişin avtobusuyla toqquşub və nəticədə 5 nəfər ölüb, 7 nəfər də ağır vəziyyətdədi.**

Oxuyuram, yazırlar ki, yük maşınının sürücüsü qeyri-qanuni yük daşıyırmış. Və belə çıxır ki, guya qanuni yük daşısaydı bu qəza baş verməyəcəkdi. Və ağlamalı olası da budu.

***AFFA, SABAHIN XEYİR! İMKAN VARSA, BİR DƏNƏ DƏ GÖ DYAZİ TAPIN, GÖRƏK O NEYLƏYƏCƏK?***



## DEYƏSƏN, DE BYAZİ DOĞRUDAN BİZİMLƏ MƏZƏLƏNİR



**Serbiyaya 1:3 hesabı ilə uduzandan sonra heç də milli olmayan milli komandamızın baş məşqçisi bildirdi ki, nəticəyə fikir verməyin, doğrudan gözəl oynadıq.**

Heç bir gözəl oyun nümayiş etdirmədik. Sadəcə olaraq, uşaqlar olub-qalanını meydana tökmüşdülər. Amma futbol hansısa oyunçunun olub-qalanını meydana tökməklə deyil, baş məşqçinin qurduğu oyundan asılıdır.

De Byazi də heç nə qura bilməmişdi. Ona görə də komandamız əli ətəyindən uzun qayıtdı.

Bir də deyir ki, komanda təzə-təzə formalaşır. Sənə innən belə Foqts kimi dörd il lazımdı komandanı axırıncı yerdə saxlamağa?

## GÜNÜN LƏTİFƏSİ

Bir oğlan oturur skamyada:
**- Ay Allah, indi mən neynəyəcəm.**
Dostu gəlir soruşur:
- De görək nolub?
**- Otur deyəcəm.**
Dostu oturub yenə soruşur, de görək nolub?
**- Skamyanı rəngləyiblər.**

## Prezident Rusiya sülhməramlıları barədə: "Həllini gözləyən müəyyən məsələlər qalmaqdadır"



**"Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən biz bundan razıyıq".**

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində jurnalistin "Ermənistanla münaqişə mövzusundan başlamaq istəyirəm. Rusiyanın sülhməramlı vasitəçiliyindən razısınızmı?" sualına cavab verən zaman deyib.

Dövlət başçısı qeyd edib ki, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır:

"Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq".

## İlham Əliyev: "Xarici siyasətimiz tamamilə hər hansı xarici hökmranlıqdan azaddır"

**"Biz hazırda hər hansı bir addımın atılması mərhələsində deyilik. Azərbaycan bilavasitə Əfqanıstana yaxın coğrafiyada yerləşmir. Hesab edirəm ki, ilk olaraq, bu qərarı Əfqanıstanın qonşuları verməlidir".**

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində jurnalistin "Siz Taliban hökumətini tanımağa hazırsınızmı?" sualına cavab verən zaman deyib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan heç vaxt nə siyasi, nə iqtisadi, nə də ki, nəqliyyat sahəsi baxımından Əfqanıstanla sıx bağlı olmayıb:

"Bizim Əfqanıstanda mövcudluğumuz orada sülhməramlı əməliyyatlarda iştirakla məhdudlaşıb. Yeri gəlmişkən, Azərbaycan hərbçiləri Kabil hava limanını sonuncu tərk edənlər sırasında olublar. Hərbçilərimiz hava limanını orada baş verən partlayışdan bir gün əvvəl tərk ediblər. Yəni, biz missiyamızı sonuncu günədək ləyaqətlə və maksimum səmərəli dərəcədə icra edirdik. Hazırda Əfqanıstanda yeni hökumətin qurulması və xarici siyasət prioritetlərinin müəyyən edilməsi dövrüdür. Müsbət meyil, müsbət yanaşma və potensial əməkdaşlıq əlamətləri gördüyümüz halda biz, əlbəttə ki, adekvat şəkildə cavab verəcəyik. Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir. Xarici siyasətimiz tamamilə hər hansı xarici hökmranlıqdan azaddır. İkincisi isə praqmatiklikdir. Biz mövqeyimizi məhz bunun əsasında formalaşdırırıq".

## "Notadan sonra İrandan Qarabağa girən yük maşınlarının sayı artdı"

**"Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik".**

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində jurnalistin " Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan İran o qədər də məmnun deyil" sualına cavab verən zaman deyib.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmur:

"Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq.

Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, - demişəm ki, bizim prioritetimiz qonşu ölkələrlə münasibətlərdir.

Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə, biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik".

# Qoşulmama Hərəkatının artan beynəlxalq nüfuzu

**Qoşulmama Hərəkatı Qlobal sülh, ədalət və həmrəylik naminə həyata keçirdiyi səylər vasitəsilə beynəlxalq arenada mühüm rol oynayan Qoşulmama Hərəkatı 1961-ci ildə Belqradda təssis edilmişdir. BMT Baş Assambleyasından sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatı müxtəlif regionları əhatə edərək fərqli tarixi, siyasi və mədəni mənsubiyyətə malik 120 ölkəni birləşdirməklə, multilateralizmin həqiqi nümunəsi hesab edilir.**

2021-ci il 11 oktyabr tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sədrliyi ilə Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantı keçirilib.

Sülh və ədalət prinsiplərini təbliğ edən təsisatın toplantısında çıxış edən Prezident İlham Əliyev bildirdi ki, "Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq prinsipləri (1955-ci ildə İndoneziyada keçirilən Bandunq konfransında qəbul olunmuş prinsiplər. Qoşulmama Hərəkatı heç bir bloka daxil olmadıqlarını və tərəfsizliklərini bəyan edən 120 üzv ölkə, 17 müşahidəçi ölkə və 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi BMT-dən sonra dünya dövlətlərinin ən böyük toplantısı hesab olunur) Qoşulmama Hərəkatının təməlində dayanır. Bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır. Əgər bütün ölkələr Bandunq prinsiplərinə riayət etsəydilər, onda biz dünyada müharibələr və münaqişələr görməzdik".

İlham Əliyev, zor tədbiq etməklə digər dövlətlərin ərazi bütövlüyünə təcavüz edilməsinə Beynəlxalq qurumların riyakarlıq və ikili standartlarla yanaşmasını qınadı: " Zor tətbiq etməklə dövlətlərin ərazi bütövlüyünün pozulması qətiyyən qəbuledilməzdir. Azərbaycan bütün ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsiplərini tam dəstəkləyir.Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəldi.

Beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərarları ilə bağlı ikili standartlar və selektiv yanaşmanın tətbiqi dünyada münaqişələrin ədalətli həllinə mənfi təsir göstərir. Azərbaycan belə selektiv yanaşmaya məruz qalıb. Beynəlxalq münasibətlərdə tüğyan edən ikili standartlardan istifadə edən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi.

Həm öz ərazisində, həm də işğal etdiyi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi. 1992-ci ilin fevralında Xocalı soyqırımını törədərək yüzlərlə mülki şəxsi, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirdi. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün doğma evlərinə qayıtmaq hüququ da daxil olmaqla, əsas insan hüquqlarını pozdu.

Hərbi təcavüzə və 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasından imtina etməsinə baxmayaraq, Ermənistana qarşı sanksiyalar tətbiq edilmədi. Təcavüzkar dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoyulmadı. Əksinə, Ermənistan işğalı möhkəmləndirir, hərbi cinayətlər törədir, qanunsuz məskunlaşdırma və təbii sərvətlərimizin qeyri-qa-



nuni istismarını həyata keçirir, Azərbaycan xalqının mədəni və dini irsini məhv edirdi".

Məsuliyyətli ölkə olaraq Azərbaycanın göstərdiyi önəmli beynəlxalq təşəbbüslərini diqqətə çatdıran Prazident, qeyd etdi ki, Azərbaycanın güc və potensialı dünya birliyi tərəfindən etiraf olunur: "Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi. Hərəkata üzv olan dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il - 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar qəbul etdilər. Bu, bilavasitə Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymətin təzahürüdür"

.Son illər XXl əsrin bəlasına çevrilən koronavirus xəstəliyinə görə elan edilən pandemiya ilə bağlı Azərbaycanın pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürdüyünü bildirən Prezident İlham Əliyev bildirdi ki, "Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdir. Azərbaycan 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişdir. Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi. Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir. Azərbaycan "peyvənd millətçiliyi"nə və peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınmasına qarşı narazılığını açıq şəkildə ifadə edir.

Belə hərəkətlər Qoşulmama Hərəkatına üzv ölkələri öz əhalisini qorumaq imkanından məhrum edir. Peyvəndlərə çıxış sahəsində fərq çox böyükdür. Beynəlxalq hesabatlara əsasən, dünyada mövcud olan peyvənd dozalarının 75 faizi 10 zəngin ölkə tərəfindən alındığı halda, aşağı gəlirli ölkələrdə peyvəndlənmə 2 faizdən azdır. Cari ilin mart ayında Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır". Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır.

Bir həftə bundan əvvəl Azərbaycan sədr kimi Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclasını keçirmiş və təsisatlanma ideyası ilə çıxış etmişdir.

Prezident İlham Əliyev, Qoşulmama Hərəkatına üzv dövlətlərin, İkinci Qarabağ savaşında 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın Şanlı Ordumuz tərəfindən azad olunmasında, ölkəmizin ərazi bütövlüyü və suverenliyini daim dəstəkləmələrini yüksək qiymətləndirdi: "Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsi münasibətlərimizin davamlı olması üçün zəmin yaratmışdır.

**Dağlıq Qarabağ münaqişəsi artıq öz həllini tapıb və keçmişdə qalıb.2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum törətdi. Buna cavab olaraq, Azərbaycan Ordusu öz ərazimizdə əks-hücum əməliyyatına başladı və işğal olunmuş torpaqlarımızı azad etdi.44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını təmin etdi, 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi".**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# İlham Əliyev: "Hadrut beynəlxalq mədəniyyət və turizm mərkəzi olacaq"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 9 oktyabr tarixində erməni işğalından azad edilmiş Xocavənd rayona səfər edib və rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirib.**

İkinci Qarabağ müharibəsində keçirilən hərbi əməliyyatlar sırasında Hadrut əməliyyatı xüsusi əhəmiyyət daşıyan hərbi əməliyyat idi. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi. Bu əməliyyatın uğurla başa çatması imkan verdi ki, Azərbaycan Ordusu öz hədəfinə - Qarabağın azad edilməsinə nail oldu. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi.



Rayon ictimayyəti ilə keçiriləm görüş zamanı Prezident İlham Əliyev bildirdi ki, "Hadrut döyüşü Vətən müharibəsinin ən ağır və gərgin keçmiş döyüşlərindən biridir. Baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda direniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar.

Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, Azərbaycan Ordusu Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcək. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik"

Döyüşərək, qan tökərək, şəhidlər verərək doğma torpaqlarına qayıtmış Azərbaycan xalqı, uzun fasilədən sonra Hadruta - Xocavəndə qayıtdı. Şəhidlərimizinqanı, canı bahasına, hərbçilərimizin şücaəti, qəhrəmanlığı hesabına tarixi ədaləti bərpa etdik, işğalçıları doğma torpaqlarımızdan qovduq və doğma torpaqlarımıza qayıtdıq: "Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı. Rəsmi İrəvan hesab edirdi ki, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi. Ermənistan rəhbərliyi və ictimaiyyəti gördü ki, Azərbaycan üçün bütün torpaqlar doğmadır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq".

Yüz illərdi yalan üzərində qurulmuş erməni siyasəti ikinci Qarabağ döyüşləri zamanı da öz xalqına döyüşlər ilə bağlı yalan məlumatlar verməkdə davam edirdi. Lakin bütün bunlara baxmayaraq, Şanlı Ordumuz Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ard- arda işğal altında olan ərazilərimizi mənfur erməni terrorçularından təmizləməkdə idi. "Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar kifayət qədər çox idi. Hadrutun ətrafında yerləşən bütün dağları işğalçılardan təmizləyəndən sonra aydın oldu ki, qəsəbənin götürülməsi, sadəcə olaraq, müəyyən zaman tələb edir. Az itkilərlə qəsəbəni götürməyə nail olduq. Ermənistan rəhbərliyi və Ermənistan Müdafiə Nazirliyi isə bəyan edirdi ki, Hadrut ermənilərin əlindədir. Azərbaycan Ordusu Hadrutdaölkəmizin bayrağını qaldırdı və erməni yalanlarına son qoyuldu. Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Ermənistanın tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. O vaxta qədər burada erməni yaşamırdı. Müharibə dövründə də Ermənistan rəsmi orqanları yalan məlumatlar yayırdılar".

Ermənistan rəhbərliyini bütün xəyalları iflasa uğradı. On illərdi işğal altında saxladıqları ərazilərdə guya ermənilər üçün yaradacqları xoşbəxt həyatı təmin etmək məqsədilə topladıqları milyardlara dollar vəsaitin hara və nəyə xərcləndiyi hələ də məlum deyil. "Ermənilərin Hayastan adlı böyük bir fondu var. Hayastan, əslində, Ermənistan deməkdir. Ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu Hayastan fondu bəlkə də bir neçə milyard pul yığmışdır. Həmçinin Amerikada yaşayan zəngin ermənilər öz xüsusi fondlarını yaradıblar, öz ailə üzvlərinə aid fondlar yaradıblar. Otuz il ərzində bəlkə də ən azı bir neçə milyard pul yığılıbdır və o pulun taleyi məlum deyil. Çünki azad edilmiş bütün yerlərə baxdıqda, hətta erməni əhalinin yaşadığı yerlərə baxdıqda, orada heç bir inkişafın əsər-əlaməti yoxdur. Ermənilər Azıx mağarasını da erməniləşdirmək istəmişdilər. Onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Mağaraya böyük ziyan vurulub". Prezident İlham Əliyev görüş zamanı bildirdi ki, Hadrutun inkişafı ilə bağlı perspektiv planlar hazırlanır: "Hadrut beynəlxalq mədəniyyət və turizm mərkəzi olacaqdır.Hadrut işğaldan azad olunmuş bütün digər ərazilər kimi bərpa olunacaqdır. AzərbaycanHadrutu bərpa edəcək.

Hadrutun baş planının ilk layihəsi artıq hazırlanıb. Yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcək və həmin plan təsdiq olunacaqdır. Artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, "Hadrut" yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri və otellər tikiləcəkdir. Azərbaycana qarşı törədilmiş ekoloji terror. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar,yandırıblar. Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib. Həmçinin Cəbrayılda. Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar. Burada demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib. Bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Bəzi binalarda ümumiyyətlə insan necə yaşaya bilər, böyük sualdır. Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı".

**Artıq məcburi köçkün anlayışı yoxdur.2003-cü ildən başlayaraq məcburi köçkünlərlə Prezident İlham Əliyevin davamlı görüşləri təşkil olunurdu. Ötən illər ərzində 100-dən çox şəhərcik inşa edilmişdir. Ancaq bizim əsas məqsədimiz tam qələbəni qazanmaq, Şuşada bayrağımızı qaldırmaq idi. Azərbaycan bu vəzifəyə nail oldu. Məcburi köçkünlərin əzablarına və onların iztirablarına son qoyuldu. Bu gün keçmiş məcburi köçkünlər evlərinə dönməyə hazırlaşırlar.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

*M. Məmmədov*

# Azərbaycanın qələbəsi Ermənistandan çox İranı yandırıb

*İran Xarici İşlər Nazirliyinin sözçüsü Səid Xətibzadə yerli radiolardan birinə verdiyi müsahibədə öz ölkəsinin Azərbaycanla münasibətləri haqqında yüksək pafosla xeyli müsbət sözlər söyləyib. "Bizim Azərbaycanla hərtərəfli səmimi, xoş dostluq münasibətlərimiz var." - deyə xarici işlər nazirliyinin rəsmisi bildirib. O, İranın daim Azərbaycan torpaqlarının işğaldan azad olunmasının tərəfdarı olduğunu bəyan eləyib və deyib ki, biz bunun hərbi yolla yox, dinc danışıqlar yoluyla həllinin tərəfdarıydıq.*

*Düzdür, Xətibzadə "danışıqlar yolu" deyərkən Minsk qrupunun vasitəşiliyi ilə keçirilən və 30 ildir acı bağırsaq kimi uzanan, faktiki olaraq Azərbaycan torpaqlarının işğalını uzun müddət konservləşdirərək tədricən leqitimləşdirməyə hesablanmış danışıqlar prosesini nəzərdə tutmurdu. O, İranın da Rusiya kimi münaqişənin tərəflər arasındakı diplomatik danışıqlar yoluyla həll olunmasını istədiyini vurğulayarkən təbii ki, Minski formatını yox, yaxşı halda öz ölkəsinin təkbaşına, pis halda Moskvayla birgə vasitəçiliyini nəzərdə tuturdu. Düzdür, 30 il ərzində bu cür təşəbbüslər çox olsa da hamısı fiaskoya uğrayıb. Amma XİN sözçüsü nədənsə bu barədə kəlmə də kəsməyib.*

*Cənab Xətibzadənin 1992-ci ilin mayında İranın vasitəçiliyi ilə Tehranda bu cür "ikitərəfli diplomatik danışıqlar"dan birinin getdiyi vaxt alınmaz qala olan Şuşanın işğal edilməsindən xəbərsiz olduğuna inanmaq çətindi. Həmin biabırçı hadisə mahiyyətcə vasitəçinin sifətinə çırpılan tərs şapalaq idi, onun üzünə tüpürmək demək idi və məntiqlə çox ciddi bir siyasi qalmaqala nədən olmalıydı. Ancaq İran rəsmiləri bundan ötrü Yerevana hansısa bir diplomatik etiraz cəhdində də bulunmadılar, onlara "gözün üstündə qaşın var" demədilər. Belə çıxır ki, öz əziz-xələf müttəfiqi və strateji tərəfdaşının işini asanlaşdırmaq naminə İranın özü də "sülh göyərçini" libasına bürünərək həmin işğal ssenarisinin içində yer alıbmış. Zahirən nə qədər qərəzli görünsə də bu rüsvayçı davranışın başqa bir izahını tapmaq çox çətindi.*



*İran XİN rəsmisinin öz ölkəsiylə bir sıraya qoyduğu Kreml də zaman-zaman belə mənasız və nəticəsiz diplomatik təşəbbüslərdə çox bulunmuşdu. İrandan fərqli olaraq Rusiyanın həm də Minsk qrupunun üzvü kimi sülh prosesinin arbitrlərindən biri olduğunu nəzərə alsaq, onun vasitəçi kimi daha zəngin təcrübəyə malik olduğunu söyləmək mümkündü. Minsk qrupunun digər üzvüləri ABŞ və Fransanın da bu münaqişədə daim ermənilərin yanında olması heç kimə sirr deyildi. Odur ki, rəsmi Bakının öz problemini öz gücüylə həll etməkdən başqa çıxış yolu qalmamışdı və ötən il o bu çətin və mümkünsüz görünən işin öhdəsindən məharətlə gəldi. Rusiya kulminasiya anında tez-tələsik meydana girərək prosesin öz məntiqi sonluğuna çatmasına imkan vermədi, onu öz istədiyi məcraya yönəlti, ambisiyalarının üstünə su səpərək rahatlaşdı, əli hər şeydən üçülmüş İransa özünü yaralı aslan kimi hiss eləməyə başladı.*

*Bir sözlə, Azərbaycanın iki böyük qonşusunun 30 il ərzində dildə nə deməklərindən asılı olmayaraq əməldə sərgilədikləri mövqe heç kimə sirr deyil və indi onu ört-basdır etməyə yönəlik bütün cəhdlər, sadəcə, adamda ikrah doğurur.*

*Son günlər İranın ali dini liderindən tutmuş XİN rəsmisi Xətibzadəyə kimi ölkənin ən müxtəlif ranqlı siyasətçi, məmur və hərbçilərinin bütün diplomatik etiket qaydalarını pozaraq Azərbaycanın ünvanına söylədikləri iftira və böhtan dolu ittihamların ardınca silahların uğultusu sərhəd bölgələrini bürüməyə başladı. Dünyanın bir nömrəli "müsəlman-şiə təəssübkeşi"nin öz müsəlman-şiə qonşusuna hədə-qorxu gəlmək üçün (bundan artığını eləməyə, sadəcə, güc və imkanları yoxdu) istifadə elədiyi yarıfeodal ritorikayla həmin ölkənin bütün quru və su sərhədləri boyu eyni məqsədlə keçirdikləri hərbi təlimlərdə istifadə olunan Nuh əyyamından qalma silahların şaqqıltısı arasında qəribə bir harmoniya yarandı.*

*İran xarici işlər naziri Abdullahiyanın faktiki olaraq fiaskoya uğramış Moskva səfəri cənub qonşumuzun aşıb- daşan qəzəbinin üstünə soyuq su səpməsəydi, bu üsyankar ritorika hələ bir xeyli sürəcək, Tehran rəsmiləri ard-arda bəyanatlar və müxtəlif səpgili açıqlamalarla öz şimal qonşusunu asıb-kəsməkdə davam edəcəkdi. Ancaq Moskva görüşündən əli ətəyindən uzun qayıdan Abdullahiyan hələ Rusiyanı tərk etməmiş Azərbaycanlı həmkarıyla görüşün vacibliyindən danışmağa başladı. Dünən isə onun Azərbaycanlı həmkarıyla telefon söhbəti olub və tərəflər bir-birini öz ölkəsinə rəsmi səfərə dəvət edib. İran XİN-in yaydığı məlumata görə bundan əlavə görüşdə ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmətlə yanaşılmasının və əlaqələrin inkişaf etdirilməsinin, narazılıqların aradan qaldırılmasının və bütün bunların gerçəkləşməsi üçün dostcasına dialoqun davam etdirilməsinin vacibliyindən danışılıb.*

*Ancaq bu müsbət gəlişmələrin fonunda Xətibzadənin son açıqlamasında yuxarıda qeyd etdiyimiz "dostcasına dialoq"a əngəl olası məqamlar da çoxdu. XİN rəsmisi yenə də İranla sərhəddə hansısa terrorçuların yerləşdiyini bildirir və bununla bağlı əllərində tutarlı sübutların olduğunu deyir. Əslində, İranın Azərbaycana qarşı son isterikasının səbəbi heç də guya sərhəddə yerləşdirilmiş "sionist terror qrupları" deyildi. Bunu özləri uydurduğu üçün feyk olduğunun fərqindəydilər. Düz bir ilə yaxındı ki, ermənilər də 44 günlük müharibədə Azərbaycan tərəfindən islam terrorçularının vuruşması barədə əllərində olan faktları açıqlayacaqlarını söyləyirlər, amma hələ ki, ortada heç nə yoxdu. İndi də, deyəsən, İran öz " qoçu" qardaşının yolunu tutub. Adama deyərlər ki, əqiqətən hfakt varsa, bu hədə-qorxuya nə hacət, açıb göstərsənə?!*

*İranın son anti-Azərbaycan demarşının kökündə çoxlarının düşündüyü kimi heç sərhəddəki toqquşmalar da dayanmırdı. İran maşınlarının qarşısının alınması üçün yollarda blok-postlar qoyulmasından tutmuş gömrük rüsumunun tətbiqinə və iki sürücünün həbs edilməsinə kimi bütün narazılıqları danışıqlar yoluyla aradan qaldırıla bilərdi.*

*Ancaq o baş verənlərə isterik münasibət göstərərək məsələni daha da qəlizləşdirdi. İsterikanısa səbəbi aydındı: İran Azərbaycanın öz torpaqlarını azad eləməsini heç cürə həzm edə bilmir, bunu az qala ermənilərdən də ağrılı qəbul edir.*

*30 illik işğal dövründə ermənilərin törətdikləri cinayətlərin nə vaxtsa dünyanın nüfuzlu ensiklopediyalarına düşəcəyinə heç kim şübhə eləməsin. Tarixin ən qaniçən fatehləri belə zəbt etdikləri torpaqlarda belə hoqqa çıxartmayıblar. Bu vəhşilikləri Ermənistanla İran bir yerdə törədib, şəhər, qəsəbə və kəndləri, maddi-mənəvi abidələrini büsbütün yağmalayaraq xarabalığa çeviriblər. Bu illər ərzində evlər, inzibati binalar, mədəniyyət abidələri sökülərək tikinti materialı kimi təkcə Ermənistana yox, həm də İrana daşınıb. Şiə məscidləri şiə müsəlmanlarının gözləri qarşısında donuz tövləsinə çevrilib.*

*Amma bütün bunlar iki ölkənin Azərbaycana qarşı törətdiyi cinayətlərin üzdə olan hissəsi, necə deyərlər, aysberqin görünən tərəfidi. Bu günlərdə Milli Məclisdə İranın 25 bankı və 400-dən çox şirkətinin Xankəndi vasitəsilə milyardlarla dollarlıq maliyyə əməliyyatları keçirdikləri barədə konkret faktlar səsləndi. Bu çoxsaylı sanksiyalardan əziyyət çəkən İran üçün böyük nəfəslikdi. Dünya birliyinin belə qanunsuz əməliyyatlara öz ərköyün övladları olan ermənilərin xətrinə göz yummaları İranın işinə yarayırdı və onun aqressiv davranışlarının məntiqini bu məqamlarda axtarmaq lazım idi.*

*Üstəlik, işğal olunmuş ərazilərdən narkotrafik kimi istifadə edilməsi imkanlarının itirilməsi onları bir az da quduzlaşdırıb. Təkcə son aylarda Azərbaycan sərhədçilərinin müsadirə etdikləri narkotik vasitələrinin miqdarına və qiymətlərinə baxanda ilboyu hansı məbləğdə maliyyə itkisindən söhbət getdiyini təsəvvür eləmək çətin deyil.*

*İran sadaladığımız bu amillərə və bir də Azərbaycanı müstəqil bir dövlət kimi həzm edə bilmədiyinə görə onun torpaqlarının azad edilməsinə lap başlanğıcdan şad deyildi. Əgər nisbi olaraq liberal adlandırılan əvvəlki hökumət bu hikkəsini boğmağı, zahirən də olsa özünü toxtaq aparmağı bacardısa, son seçkidə onları əvəz eləyən mühafizəkarlar hisslərinə hakim kəsilə bilmədi, içlərinin paxırı vurub üzlərinə və dillərinə çıxdı.*

# Böyük xalq sevgisi

**...Dünya yarandığı gündən ta bu günə kimi Allah-təala tərəfindən idarə olunur. Yəni, dünyamızı yaradan o böyük varlıqdır. Amma bununla yanaşı, hər bir dövlətin başçısı, rəhbəri var. Təbii ki, bizim məmləkətimizdə də Allahı və Prezidenti sevən insanlar çoxdur. Çünki mən Allahı və Prezidenti sevməyən adamın səmimiyyətinə inanmıram. Bir məmləkətin ki, böyüyü, ağsaqqalı, yol göstərəni varsa, deməli, hamı ona hörmətlə yanaşmalı və daha doğrusu, dəyər verməyə borcludur...**

...Biz xoşbəxt ölkəyik ki, məmləkətimizdə çox böyük dövlət xadimi, ölkəni və xalqı birləşdirən, uzaqgörən, müdrik siyasətçi Heydər Əliyev kimi bir şəxsiyyət olub. Ən azından ona görə ki, əgər Ulu Öndər vaxtında xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, bugünkü müstəqil dövlətdən danışa bilməzdik. Çünki daxili və xarici qüvvələr ölkəni parçalamağa çalışır, müxtəlif bəhanələr axtarır və nəyin bahasına olursa-olsun, ölkəmizdə, məmləkətimizdə hərc-mərclik, xaos yaratmağa çalışırdılar. Ulu Öndərin vaxtında hakimiyyətə gəlməsi həm Azərbaycanı parçalamaqdan və dağılmaqdan xilas etdi, həm də ölkədə baş alıb gedən özbaşınalığın və xaosun qarşısını aldı.




Heç də hər dövlətin və məmləkətin belə şəxsiyyətləri olmayıb və ona görə də həmin ölkələr bu gün də düşdükləri bataqlıqdan çıxa bilmir. İraqdakı, Misirdəki, Liviyadakı vəziyyəti gözümüzün önünə gətirsək, görərik ki, doğurdan da, tarixi şəxsiyyət və uzaqgörən siyasətçi əvəzedilməzdir. Həmin məmləkətlərdə bu gün bir dahi və xalqını sevən şəxsiyyət olmadığına görə ölkədə də vəziyyət ruscadır. Bizdə də bunu eləmək istədilər, ancaq alınmadı. Çünki bu təhlükənin qarşısını Ümummilli Lider Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti aldı.

Ermənilər ilk böyük dəmir yumruğu Ulu Öndər Heydər Əliyev tərəfindən aldılar. Belə ki, 1994-cü ilin yanvarın 4-dən 6-na qədər Ümummilli Liderin rəhbərliyi ilə Füzulinin Horadiz şəhəri və 22 yaşayış məntəqəsi Azərbaycan ordusu tərəfindən azad edildi. Sərhəddimizdə, daha doğrusu Araz çayının üstündəki körpüdə Azərbaycan bayrağı dalğalandı. Bu möhtəşəm qələbə ilə Azərbaycan dövləti bir daha göstərdi ki, onun bütün torpaqları işğaldan azad ediləcək. Günbəgün artan iqtisadi gücümüz və hərbi potensialımız onu deməyə əsas verirdi ki, bu qələbə uzaqda deyil.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda çox böyük islahatlar həyata keçirildi. Azərbaycan ordusunun arsenalı ən müasir silahlar və texnologiya ilə təchiz olundu. Cənab Prezident İlham Əliyev də Ulu Öndərin siyasi kursunu davam etdirərək, beynəlxalq kürsülərdə bir daha erməni işğalçılarının iç üzünü ifşa etdi və bu işğalla Azərbaycan xalqının barışmayacağını bildirdi. 2016-cı ilin aprel döyüşləri ermənilərə ikinci dəmir yumruğu vurdu. Bu dəmir yumruq Lələtəpə yüksəkliyinin və minlərlə hektar torpaq sahələrimizin azad edilməsi ilə nəticələndi. Həmin əməliyyatlar zamanı mən bir jurnalist olaraq Horadizdə idim. Çünki Horadiz şəhərində mənim qızım və iki nəvəm yaşayır. Həmin əməliyyat zamanı bir nəfər də olsun şəhəri tərk etmədi. Onlar Prezident İlham Əliyevə və Azərbaycan ordusuna inanırdılar və böyük ümid bəsləyirdilər. Bu ümid də özünü göstərdi. 2016-cı il aprel döyüşləri Azərbaycan tarixinə yeni bir şanlı Zəfər yolu, Zəfər qələbəsi yazdı. Mən dünyada çox böyük ölkələrin Prezidentlərinin adını eşitmişəm. Amma onların heç biri nə Ulu Öndər Heydər Əliyev, nə də Prezident İlham Əliyev kimi xalq tərəfindən sevilmirlər. Çünki insanın ürəyində sevgi, məhəbbət qazanmaq hər hansı şəxsiyyətin əməlindən asılıdır. Və bu iki dahi şəxsiyyət də bu xalqa, bu millətə özünü sevdirməyi bacardı. Mən 2017-ci ildə Prezident İlham Əliyev ilə bağlı bu başlıq altında: "Dünyanın ən səmimi prezidenti" yazı qələmə almışdım. Məni sevindirən odur ki, cənab Prezident hansı regiona, hansı bölgəyə səfər edibsə, həmişə xalqla çox səmimi söhbətlər edib. Hətta həmin görüşdə Prezidentlə söhbət zamanı həyəcanlanan bəzi sakinlər Prezidentin səmimiyyətindən sonra çox rahat şəkildə öz fikirlərini və istəklərini ifadə ediblər. Əvvəl dediyim və səsləndirdiyim fikrin üstündə yenə də dayanıram və deyirəm ki, İlham Əliyev həqiqətən də dünyanın ən səmimi və sadə prezidentidir.

Bunu bir daha cənab Prezidentin Cəbrayıl və Xocavənd rayonlarının ziyalılarla görüşündə gördük. Cəbrayılda əməkdar artist, gözəl xanəndə Yaqut Abdullayeva çox gözəl çıxış elədi və dedi ki, sizin o dəmir yumruğunuz işğal altında olan bütün torpaqlarımızı azad elədi. İcazə verin, sizin o dəmir yumruğunuzdan öpüm! Yaqut xanım prezidentə yaxınlaşdı, onun əlindən öpmək istədi. Prezident onu bağrına basıb bir daha öz böyüklüyünü göstərdi. Bax, xalq məhəbbəti, millət məhəbbəti budur!

...Mən həmin anlara baxanda çox həyəcanlandım və sevindim. Və bir daha Azərbaycan Prezidentinin xalq, millət məhəbbətinə heyran qaldım. Və bir daha gördüm ki, doğrudan da İlham Əliyev dünyanın ən səmimi prezidentidir. Aman Allah, insan nə qədər sadə, nə qədər səmimi olar.

Prezident İlham Əliyev dəfələrlə görüşlərində bildirib ki, o, hər bir azərbaycanlının prezidentidir. On milyonluq xalq bunu çox yaxşı bilir. Bu xalq yaxşı bilir ki, yuxumuzda görmədiyimiz vətən sevgisini və 30 illik həsrəti arxada qoyaraq bizə bəxş edən Prezident İlham Əliyevdir... Bu xalq yaxşı bilir ki, İlham Əliyev Azərbaycan tarixində unikal bir Zəfər anına imza atıb... Bu xalq yaxşı bilir ki, Prezident İlham Əliyev bu xalqı, bu milləti və ordunu möhtəşəm bir surətdə birləşdirməyi bacardı. Xalqı və milləti, ordunu birləşdirən Prezidenti xalq öz gözü üstə saxlayır və saxlayacaq!

...Torpaqlarımız, rayonlarımız, qəsəbələrimiz, kəndlərimiz bir-bir işğaldan azad olunduqca, cənab Prezident deyirdi ki, bunu Azərbaycan ordusu, Azərbaycan əsgəri azad edir. Onlar aslan kimi döyüşürlər, sözünün əvvəli də, axırı da bu Zəfəri Azərbaycan əsgərinin qazanması ilə bağlayırdı. Bir dəfə eşitmədik ki, desin bu işi, bu qələbəni mən əldə etmişəm, mən qazanmışam. Amma bütün xalq və dünya yaxşı bilirdi ki, bütün bu qələbə və Zəfər Ali Baş Komandan, Azərbaycan Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində qazanılıb. Hətta Milli Məclisdə, eləcə də digər mötəbər yerlərdə fikirlər səsləndirirdi ki, cənab Prezidentə Milli Qəhrəman adı verilsin. Amma cənab Prezident o qədər təvazökar, o qədər uzaqgörən bir siyasətçidi ki, bu adın ona verilməsini qəbul etmədi. Amma Azərbaycan xalqı, Prezident İlham Əliyevi çox böyük qəhrəman kimi qəbul edir, onu sevir və böyük hörmət bəsləyir. Düşünürük ki, bu xalq ona görə xoşbəxtdir ki, onun İlham Əliyev kimi polad iradəli, mətin və uzaqgörən bir dövlət başçısı var. Yazımın əvvəlində qeyd eləmişdim ki, Allahı və Prezidenti sevməyən adamın səmimiyyətinə inanmıram. 44 gündə möhtəşəm qələbəyə imza atmış Azərbaycan Prezidentini bu xalqın məmə yeyənindən pəpə deyəninə qədər hamı çox istəyir. Allah hər bir azərbaycanlıya prezidentlə görüşməyi qismət eləsin. Çünki görüşənlər hamısı deyir ki, onun nə qədər sadə, səmimi və vətənpərvər olduğunu bir daha yəqin edirsən. Görüşəndən sonra yəqin edirsən ki, doğurdan da Prezident İlham Əliyev dünyanın ən səmimi və sadə Prezidentidir.

**Mənim özüm dəfələrlə cənab Prezidenti yuxumda görmüşəm. Və yuxuda da inanın o səmimiyyəti, o sadəliyi hiss eləmişəm. Hiss eləmişəm ki, Prezident İlham Əliyev doğurdan da dünyanın ən səmimi prezidentidir və cənab Prezidentin sərəncamı ilə mən 2020-ci ilin iyulun 22-də "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşəm. Bu münasibətlə cənab Prezidentə öz təşəkkürümü də bildirmişəm. Amma ən böyük arzum odur ki, cənab Prezidentlə hansısa bir görüşdə iştirak edim. Allah-təala hamıya öz arzusuna qovuşmağı qismət eləsin...**

**Faiq QİSMƏTOĞLU,**
**Əməkdar jurnalist**

# Dövlət qulluqçusuna qarşı qarayaxma kampaniyası aparmaq kimlərin marağındadır?

***Şübhə yox ki, tezliklə ictimai rəy "it hürən" deyil, "işıq gələn" tərəfə yönələcək***

**Dövlət qulluğunun başlıca funksiyası, onun mahiyyəti - dövlətə qulluq etmək, dövlət və cəmiyyət, dövlət və onun vətəndaşları arasında dayanıqlı əlaqəni yaratmaq, öz fəaliyyətində əməli surətdə demokratik prinsipləri realizə etmək, vətəndaş cəmiyyətinin genişləndirilməsinə şərait yaratmaqdır.**

Dövlət qulluqçularının hazırlıq səviyyəsinin və iş keyfiyyətlərinin yüksək olması çox vacibdir. Yalnız yüksək peşəkarlıqla, dərin biliklə, kreativ düşüncə tərzi ilə, ən başlıcası vətənə, xalqa, dövlətə sədaqət hissi ilə bu çətin və məsuliyyətli işin öhdəsindən gəlmək mümkündür. Dövlət qulluqçularının müsbət imici xalqın dövlətə münasibətinin formalaşmasında mühüm rol oynayır.

Gəlin razılaşaq ki, dövlət qulluqçusunun qarşısına qoyulan bütün bu tələblərə cavab verən kadrların qədri bilinməli, onların müsbət imicinə ziyan vuracaq hər hansı haqsız iddiaların, şər-böhtanın qarşısını almaq bütün cəmiyyətin marağında olmalıdır. Xüsusilə belə məsələlərdə kütləvi informasiya vasitələri ehtiyatlı, həssas olmalı, yetərincə dəqiqləşdirilməmiş məlumatları dövriyyəyə buraxmamalıdırlar.



Amma çox təəssüf ki, Azərbaycanın informasiya məkanında müşahidə olunan "sensasiya" dalınca qaçmaq kimi mənfi tendensiya hərdən hətta nümunəvi dövlət qulluqçularının da nüfuzuna xələl gətirir. Müasir Azərbaycan reallığında pis şayiələrin nişangahına tuş gəlmiş təmiz adamlar, tərəqqipərvər vətəndaşlar, vicdanlı dövlət qulluqçuları, hökumət məmurları az deyildir. Ölkəmizdə yaranmış söz azadlığından sui-istifadə edənlər hədəf seçdiklərinin barəsində hədyan, böhtan yayır, bu yolla öz cılız məqsədlərinə çatmaq istəyirlər. Vəzifəli şəxsin haqqında yayılmış mənfi informasiyanın yalan olduğu sübuta yetirildiyi təqdirdə belə, yenə də təsirsiz ötüşmür. Onun barəsində ictimai fikir haçalanır, kimsə "ocaq yanmasa, tüstü çıxmaz" - atalar sözünü yada salır və s.

Haqqında söz açdığımız perspektivli dövlət qulluqçusu, Ağcabədi RİH-nin Hüquq Şöbəsinin müdiri Hüseynov Hafiz Ədalət oğlu orta məktəbi fərqlənmə ilə bitirib. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunudur. Hal-hazırda Prezident yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır. Hafiz müəllim çalışdığı kollektivin üzvlərinə, eləcə də rəhbərlik etdiyi şöbəyə müraciət edən vətəndaşlara münasibətdə tutduğu obyektiv mövqe, müxtəlif məsələlərin həllində ədalətli yanaşma tərzi insanları cəlb edir. Ona sualla müraciət edənləri məmnunluq hissi ilə cavablandırması, həmin suala verdiyi şərhi, fikirlərinin sərrastlığı, məzmunluluğu, əhatəliliyi heyranlıq doğurur. O, hörmət-izzəti tutduğu vəzifəyə görə qazanmayıb. Əksinə, həmişə tutduğu vəzifəyə hörmət qazandırıb.

Prinsipial, özü, sözü, xarakteri bütöv olan Hafiz müəllim xeyirxah işlərdə nə qədər səxavətlidirsə, hansısa bir haqsız işə, qeyri-obyektiv qəbul edilmiş qərara qarşı eyni qədər barışmaz və dönməzdir.

Təmiz ad çox qiymətlidir, onu qazanmaq üçün insanın Hafiz Hüseynovun malik olduğu kimi yüksək məziyyətləri olmalıdır. Əgər onu daşıyan adamın özü və ətrafı yüksək səviyyəlidirsə, təmiz ad - san rəğbət oyadır və həmin şəxsi əzəmət şəfəqinə bürüyür. Bu şəfəqin şüaları çoxlarının gözünü qamaşdıra bilər.

Bir ay öncə Ağcabədi rayonunun Avşar kənd sakini, 1986-cı il təvəllüdlü Şirinov Vətən Pöhrüz oğlu qonşusu ilə aralarında baş vermiş mübahisədən dolayı Hafiz müəllimin barəsində yuxarı instansiyalara və KİV-ə həqiqətdən uzaq məlumatlar vermişdir. Yol problemi ilə əlaqədar mübahisə vəziyyətində olduğu həmkəndlisi Fazil Rəhimovun el içində Hafiz Hüseynova arxalandığını deməsi Vətən Şirinovda yanlış fikir formalaşdırmış və o, əsəbləşərək bu barədə, üstəlik, Hüseynovun guya vətəndaşlara saxta COVİD-19 pasportlarının verilməsində əlinin olması haqda yalan məlumatlar yaymışdır.

Çox keçmədən səhvini başa düşən Vətən Şirinov şikayət etmiş olduğu adresatlara - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, baş prokuror cənab Kamran Əliyevə, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi cənab Əli Nağıyevə yenidən müraciət edərək, tutduğu əməlindən peşiman olduğunu bildirmişdir. V.Şirinov eyni zamanda H.Hüseynov barəsində verdiyi yanlış məlumatları dəqiqləşdirmədən yayan sayt rəhbərliyinə də məktub yazaraq, həmin informasiyanı təkzib etdiyini bildirmiş, əvvəlki yazının internet resurslarından silinməsini, hazırki mövqeyinin paylaşılmasını xahiş etmişdir. Buna baxmayaraq, sayt rəhbərliyi hərəkətsizlik göstərərək, hansısa başqa maraqlar naminə onun xahişini yerinə yetirməmişdir. Təbii ki, belə olan halda vəzifəli şəxsə şər-böhtan atmağın bütün məsuliyyəti KİV orqanının üzərinə düşür. Haqlı olaraq belə bir sual doğur: Media orqanının rəhbərliyi hansı korporativ maraqlar naminə, kimlərin təkidi ilə bütün bu məsuliyyətin altına girərək, özünün yol vermiş olduğu yanlışlığı (yumşaq ifadədir - müəllif.) düzəltməyə tələsmir, yəqin ki mümkün qədər çox oxucunun nəzərini cəlb etsin deyə həmin hədyan məlumatın internet resurslarından çıxarılmasını yubadır? Bəlkə kimlərdənsə aldığı sifarişi - dövlət qulluqçusunu məqsədli şəkildə ləkələmək öhdəliyini yerinə yetirir?

**"Tələsmir", "yubadır" ifadələrini ona görə işlədirik ki, bizim çəkdiyimiz misalda kütləvi informasiya vasitəsinin lazım gəldiyi təqdirdə tələsməyə, məsələni yubatmamağa məcbur edilməsi, həmçinin məsuliyyətə cəlb olunması zamanla həll olunası məsələdir və buna nail olmaq üçün hüquqşünas H.Hüseynovun məhkəməyə müraciət etməsi yetərlidir. Hətta bəlkə də daha məqsədəuyğun olar ki, əvvəlcə bu məsələni hüquq-mühafizə, cinayət təqibi orqanları təhqiq etsinlər. Lakin məgər pis olarmı ki, V.Şirinov səhvini boynuna aldığı kimi, onun səhvini tirajlayan KİV orqanı da öz xoşu ilə adekvat addım atsın? Onsuz da sağlam düşüncəsi olan heç kəs inanmaz ki, İcra Halkimiyyətinin hüquqşünası birbaşa vəzifə səlahiyyətinə aid olmayan işi görə (saxta COVİD-19 pasportu paylaya - müəllif.) bilər. Şübhə yoxdur ki, tezliklə ictimai rəy necə deyərlər, "it hürən" deyil, "işıq gələn" tərəfə yönələcək.**

**Ceyhun Rüstəmov**

# 3-cü dozanın əhəmiyyəti

**Pandemiyaya qarşı mübarizədə hər bir vətəndaş sosial məsuliyyət daşıyır. Vaksinasiyada iştirak artıq vətəndaş məsuliyyətinin ayrılmaz göstəricisidir. Ətrafdakıları qorumaq naminə hər kəs peyvənd olunmalıdır. Bu gün əhalinin 4 növ vaksin seçimi var. Ölkəmizdə aparılan peyvənd kampaniyası çərçivəsində "Sinovak", "AstraZeneca", "Pfizer" və "Sputnik" vaksinləri ilə 9 milyon dozadanartıq peyvənd istifadə edilib. Onların hər biri effektiv və təhlükəsizdir.**

Vaksinin təsir mexanizmi. İmmun sistemi vaksini antigen kimi qəbul edir və ona qarşı anticisimlər yaradır. Orqanizm peyvənd vasitəsilə virusla tanış olduğu üçün artıq xəstəliklə qarşılaşanda hazırlıqlı olur və ağırlaşmanın qarşısı alınır.

Vaksinasiyanın artan aktuallığı. Pandemiyanın fəsadları bütün yaşlarda olan insanlara təsir edə bilər. COVİD-19 virusuna gənc və sağlam insanlar da yoluxa bilər. Gənclər xəstəliyi simptomsuz və yüngül keçirsələr də, ətraflarında olan digər insanları yoluxdura bilərlər. Vaksinasiya olunmayan şəxslərin kütləvi tədbirlərdəiştirakı insanların həyatını təhlükə altına qoyur. Məsuliyyətsiz addımlar cəmiyyətin gələcəyini təhlükə altına qoyur, görülmüş işləri və sərf olunmuş vəsaiti heçə endirir.

### *Vaksinin qüvvətləndirici üçüncü (Buster) dozası*

Buster dozasının əhəmiyyəti. Dünyada müşahidə olunan tendensiyalar COVID-19 ilə mübarizə üsullarının təkmilləşdirilməsini və qabaqcıl tədbirlərinin görülməsini zəruri edir. Peyvənddən bir müddət sonra maksimuma çatan qorunma səviyyəsi vaxt keçdikcə zəifləyə bilər.Buster dozaimmunitet reaksiyasını yenidən gücləndirməyi və bununla da peyvəndin effektivliyini artırmağı hədəfləyir.

Yüksək risk qrupuna daxil olunan insanlar.Buster dozasının istifadəsi yüksək risk qrupuna daxil olanlar (tibb işçiləri, yaşı 50-dən yuxarı olan şəxslər, autoimmun xəstəlikləri olan, xroniki xəstəliyi olan şəxslər) üçün məqsədəuyğun hesab olunur və əhəmiyyəti daha çoxdur;

Vaksinasiya nəticəsində müxtəlif fəsadların olması ehtimalı. Bu günə kimi xroniki böyrək xəstəlikləri, hər hansı uroloji və nefroloji problemi olan xəstələrin COVID-19-a qarşı vaksinasiya olunmasına dair heç bir əks göstəriş yoxdur. Uroloji, nefroloji xəstəlikləri olan şəxslərin vaksinasiyasında ciddi problem olmayıb. Yan təsirlər də hər kəsdə olan təsirlərdir. Vaksinasiya nəticəsində əmələ gələn fəsadlar vaksinasiya olmadan xəstəliyə yoluxma nəticəsində yaranan fəsadlardan daha yüngüldür.

Hər iki doza vaksinlə peyvəndlənən şəxslərin koronavirusun yeni ştammlarına yoluxma riski var. Yoluxma ilə bağlı beynəlxalq statistika artıq təkrar vaksinasiya olunmanın zəruriliyini isbat edir. Ona görə də buster dozasının alınması sürətləndirilməlidir.

Müxtəlif xarici ölkələrdə də artıq buster dozasının vurulmasına başlanılıb. Koronavirusunştammlarındanqorunmaq üçün buster dozasının vurulması tövsiyə olunur.




Üçüncü doza virusa qarşı güclü qorumanı bərpa edir.Buster dozası yüngül yoluxmaları önləyə və virusun yayılmasını, eləcə də COVID-19-la bağlı hospitalizasiya və ölümləri azalda bilər. Üçüncü doza virusla savaşan anticismləri daha öncəki dozalardan üç dəfə artıq gücləndirir. Bu anticismlərkoronavirusunştammlarına qarşı güclüdür. Beynəlxalq təcrübə. İsrailin Səhiyyə Nazirliyinin məlumatına görə, buster dozasının qəbulundan sonra yan təsirlər nadir hallarda müşahidə olunub, onlar da birinci və ikinci inyeksiyadan sonra üzə çıxan əlamətlərdən fərqlənmir. ABŞ Xəstəliklərin Profilaktikası və Kontrolu Mərkəzlərinin və İngiltərənin Milli Səhiyyə Xidmətinin məlumatlarına əsasən,buster dozasının istifadəsi ilkin dozadan 6 ay keçmiş risk qruplarına aid olan şəxslər üçün əhəmiyyətlidir. Risk qrupuna yaşlı nəsil, eləcə də yan xəstəlikləri mövcud, yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslər aid edilir. Effektiv və etibarlı nəticələr. ABŞ-ınelmi mərkəzləri tərəfindən keçirilmiş tədqiqatlara əsasən buster dozasının effektivliyi sübut olunmuşdur. ÜST-ə və Kanadanın müvafiq qurumuna əsasən buster dozasının istifadəsi immunsupressiv hallarda və ən çox ehtiyacı olan həssas qruplarda tövsiyə edilir. Tədqiqatlara görəbusterdozası almış şəxslərdə yoluxmadan qorunma 11 dəfə, ağırlaşmalardan qorunma isə 19 dəfə artmışdır. Buster peyvəndin gücləndirici dozasıdır.Koronavirusun mutasiyası nəticəsində yeni "Delta" variantının ortaya çıxmasından sonra Azərbaycan da daxil olmaqla bir sıra ölkələrdə 3 cü peyvənd dozası - buster dozası təklif olunur.Nəzərə alınmalıdır ki, bəzi hallarda yeni variantlara qarşı qorumanı gücləndirmək üçün peyvəndin əvvəlkindən fərqli növü tətbiq oluna bilər.

**Statisikaya görə Azərbaycanda 9 milyondan çox vaksindən istifadə olunub, yoluxma sayı getdicə azalır. Amma bu hələ o demək deyil ki, biz korona virusa qalib gəlirik. Vaksin vurduran vətəndaşlarımızın əksəriyyətinin hər iki dozadan istifadə müddıtindən artıq altı ay ötdüyünü nəzərə alsaq, üçüncü dozanın vurulmasının vacib olduğunu bildirməliyik. Ona görə də XXl əsrin koronavirus bəlasından qurtulmaq üçün üçüncü dozanın vurlmasının vacibliyini bir daha vətəndaşlarımızın nəzərə almasına inanırıq. Yalnız bu yolla biz pandemiyaya qalib gələ bilərik.**

**Mehriban Cəfərova**

# Avtomobillər texniki baxışdan vaxtında keçirilməlidir



**Hər bir nəqliyyat vasitəsinin markasından asılı olaraq texniki baxışdan keçmə müddəti var. Və bu müddətə də uyğun olaraq həmin nəqliyyat vasitələri Baş Dövlət Yol Polisi İdarəsinin aidiyyatı şöbəsində qeydiyyatdan keçməlidirlər. Bu məqsədlə həm şəhərdə, həm də Maştağa qəsəbəsində hər cür avadanlıq və texnologiya ilə təchiz edilmiş yerlər mövcuddur. Təəssüflə qeyd etməliyik ki, bəzi sürücülər avtomobilləri vaxtında texniki baxışdan keçirmir və sonradan onlar özləri üçün problemlər yaradırlar. Avtomobillər vaxtında texniki baxışdan keçirilməyəndə ağıllı radarlar vasitəsilə onlar aşkarlanır və nəqliyyat vasitələrinin sahibləri 50 manat civarında cərimə edilirlər.**

Ona görə də bir daha Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edir ki, hər hansı nəqliyyat vasitəsinin texniki baxış müddəti bitməmişdən onu müayinədən keçirtsinlər. Əks təqdirdə həmin avtomobillər radarlar tərəfindən aşkarlanacaq və nəqliyyat vasitələrinin sahibləri inzibati məsuliyyətə cəlb edilərək cərimə olunacaqlar.

**Emil FAİQOĞLU**

# *Texasda işçiləri və müştəriləri vaksinə məcbur etmək qadağan olundu*



**ABŞ-ın Texas ştatında müəssisə və təşkilatların işçilərindən, yaxud müştərilərindən koronavirusa qarşı məcburi peyvənd tələb edilməsi qadağan olunub.**

Bununla bağlı Texas Qubernatoru respublikaçı Qreq Abbott fərman verib.

"Mən istənilən təşkilat tərəfindən məcburi peyvənd edilməsini qadağan edən fərman verirəm", - deyə o, özünün "Twitter" hesabında yazıb. O, bu məsələnin ştatın qanunverici orqanının xüsusi iclasına da təqdim edildiyini vurğulayıb.Fərmanın mətninə görə, heç bir təşkilat şəxsi səbəblərə - dini inanclarına və ya tibbi problemlərinə görə vaksinasiyaya razı olmayan işçi, yaxud müştəridən COVID-19 əleyhinə peyvənd vurdurmağa məcbur etmək hüququna malik deyil.

Bundan əvvəl Texas hökuməti ştatdakı şirkət və qurumlara, sakinlərindən hər hansı bir xidmətin göstərilməsi üçün koronavirusa qarşı peyvənd barədə sənəd tələbini qadağan etmişdi.

**Texas, iqtisadi cəhətdən ən inkişaf etmiş Amerika ştatlarından biridir. Neft hasilatına görə, ştatlar arasında birinci yerdədir.**

**Eminquey**

# *NATO Rusiya ərazisində aclıq yarada bilər*

**NATO Rusiya ilə gərginlik yaranacağı təqdirdə ölkənin Kalininqrad vilayətinin ərzaq və yanacaq təchizatını əngəlləyə, bununla da bölgədə aclığa səbəb ola bilər.**

Bunu hərbi ekspert Devid Eks "Forbes" nəşrində dərc olunan məqaləsində bəyan edib.

Onun sözlərinə görə, vaxtilə Almaniya ərazisi olmuş və II Dünya müharibəsindən sonra SSRİ-nin nəzarətinə keçmiş Ka-



lininqrad hazırda NATO sərhədləri çərçivəsində faktiki olaraq yeganə Rusiya hərbi bazasıdır. Eksklavın hər kvadratmetri silah-sursatla doludur. Hərbi ekspert bu yaxınlarda Estoniyanın İsraildən 320 km məsafəli "Blue Spear" qanadlı raketlərini almaqla Baltik dənizində təkcə müdafiə deyil, həm də hücum imkanları əldə etdiyini, gərginlik zamanı Rusiya ilə Kalininqradın hava və dəniz əlaqəsini kəsə biləcəyini, hətta Sankt-Peterburqu da vura biləcəyini qeyd edib.

**Eminquey**

# Saakaşvilinin vəziyyəti daha da pisləşdi

**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin vəziyyəti daha da pisləşib.**

Bu barədə sabiq prezidentin vəkilləri məlumat yayıblar. Onların sözlərinə görə, eks-prezident mənəvi cəhətdən möhkəmdir və Gürcüstan vətəndaşlarını cümə axşamı yenidən etiraz aksiyasında iştirak etməyə çağırır.

Vəkillər qeyd ediblər ki, söhbət ümumxalq aksiyasından gedir.

Saakaşvilinin digər müdafiəçisi Dimitri Sadzaqlişvili Penitensiar Xidmətdən siyasətçinin şəxsi həkiminin tibbi müayinə üçün Rustavi həbsxanasına buraxılmasını tələb edib.

**Mehriban**

# Əcəli yaxınlaşan "keçi"dən növbəti provakasiya: Qəsəbə tikintisindən sonra "mer seçkisi" ...

**Bir dəfə sosial mediada mənə həddən artıq ləzzət verən bir videoya baxmışdım. Deməli, bir Azərbaycan əsgəri üzünü erməni səngərinə tutub ucadan bir xəbərdarlıq edir: Eyy, Paşinyan, mən tərxis olub gedirəm, bax ha, üzünə-başına yaxma, qayıdaram".**

Deyəsən, Paşinyan yox terrorçu Arayik artıq üzünə başına yaxmağa başlayıb.

Son günlər qondarma, oyuncaq "dqr" qondarma, oyuncaq başçısı, hərbi cinayətkar Arayik Arutunyan dəridən - qabıqdan çıxır ki, Azərbaycan Silahlı Qüvvələri Hadrutda keçirdiyi hərbi əməliyyatın birini də Xankəndində keçirsin. Bildiyiniz kimi, Azərbaycanın Xocalı ərazisində ermənilərin saldığı yeni qəsəbənin tikintisi davam edir.



Yeni qəsəbə "Hayastan" fondununu maliyyə vəsaiti hesabına Xocalı rayonunun Daşbulaq (erm.Astxaşen) kəndi yaxınlığında salınır. Fotodan da göründüyü kimi bu ərazilər Xocalının öz ərazisidir.

Qəsəbəyə Xocalının Azərbaycanın nəzarətində olan Mədətkənd, Dəmirçilər və Sığnaq kəndlərində yaşamış ermənilər köçürüləcək.

2022-ci ilin sonunda istifadəyə veriləcək qəsəbədə 200 fərdi ev, tibb məntəqəsi, stadion, icma mərkəzi və s. inşa edilməsi irəlliləyir. İşlərin gedişinə isə bir başa Arayik Arutunyan nəzarət edir. Və bu nəzarəti də nümayişkaranə həyata keçirir.

Ötən gün isə A. Arutunyan növbəti bir hərəkət ilə Azərbaycanın səbr kasasına növbəti damcını da atdı.

Azərbaycan Respublikasının Rusiyanın sülhməramlı hərbi kontingentinin qalan torpaqlarındakı Ermənistana bağlı separatçı-terrorçu rejimin faktiki nəzarətində olan Qarabağ torpaqlarında növbəti qanunsuz "seçki" keçirilib.





Adalet.az xəbər verir ki, "Kavkazskiy uzel"in yaydığı məlumata görə, oktyabrən 10-da Ağdam rayonunun "Nor-Qazançi" adlandırılmış Sırxavənd, Xocalı rayonunun Xaçmaç, "Tsaxkşat" adlandırılmış Qışlaq və Xocavənd rayonunun "Herher" adlandırılmış Qarqar kəndlərində "yerli orqanlar"a "seçki"lər keçirilib.

Guya seçicilərin 59,2% -i dörd icma başçısının seçkilərində iştirak edib, heç bir qanun pozuntusu qeydə alınmayıb. Nor Kazançı və Tsaxkaşat kəndlərinin seçilmiş başçıları "Kavkazskiy uzel"ə bildiriblər ki, bu icmalarda su təchizatı, ötən payız zamanı müharibədə zədələnmiş evlərin təmiri məsələləri həll olunmayıb və Nor Kazançı sərhəd kəndində sahələrdə işləyərkən kəskin təhlükəsizlik problemi var. Guya bu təzə "merlər" bütün bu problemləri həll edəcəklər.

***P.S.* *Görəsən, erməni separatçıları niyə anlamaqda əziyyət çəkirlər ki, 30 ildən sonra o həvəslə torpaqlarını azad etməyə gələn Azərbaycanlılar, bir gün yenə dönüb yeni bir "təmizləmə" işi apara bilər və bunun qarşısını heç bir qüvvə, heç bir dövlət ala bilməz. Türkiyənin prezidenti Rəcəp Tayyib Erdoğanın zərb məsələ dönən bir sözü var: Bir gece ansızın gelebiliriz!***

***Azərbaycan Ordusu həqiqətən yenidən ora gəlmək üçün sadəcə bir əmrə bənddir!***

**Əntiqə RƏŞİD**



*Eminquey*

# Hünərin var, intellektual ol!

**Zaman o zaman idi ki, dayanacaqlarda təptəzə, cağbacağ monitorlar avtobus dayanacaqlarında taxt-taca minmişdi.**

**Bir baxanda, dönüb bir də baxmaq istəyirdin. Bu baxışlar əvvəl-əvvəl göz oxşamaq, könül açmaq üçün idisə, sonralar saat ehtiyacına çevrilmişdi. Gözlərimiz bu monitorlarda avtobusların gecikməyinə zillənə-zillənə mazol olmuşdu.**

**Adını intellektual idarəetmə sistemi qoymuşdular. Bu monitorların balalarından avtobuslara da quraşdırmışdılar. Hətta o qədər intellektual aparatlar idi ki, sürücüləri siqaret çəkməyə belə qoymurdu. Siqaret çəkənlər bu aparatlardakı kameraların ucbatından vərdişlərini tərgitmişdilər. Bir sözlə, bu intellektual aparatlar cəmiyyəti maarifləndirməkdən məsul idilər.**

**Bu monitorlar keçmiş Nəqliyyat naziri Ziya Məmmədovun təşəbbüsü ilə dövlət büdcəsi hesabına dayanacaqlara quraşdırılmışdı.**

**Bəs, sonra nə oldu?**

**Qəfil bu intellektual monitorlar iflic olmağa başladı. Əvvəl ekranları qırıq-qırıq göstərdi, sonra yavaş-yavaş işıqları öləzidi və nəhayət qaranlıq...**

**Bəzi dayanacaqlardakı terminallar işlək vəziyyətdə olsa da informasiyalar düzgün deyil. Həmin ərazidən keçən avtobusların heç də hamısının marşrut xətti və intervalı ilə bağlı məlumatlar sistemə əlavə edilməyib. Sistemdə olan marşurutların hərəkət intervalı isə düzgün göstərilmir.**

**Hətta bu intellektualların bəziləri son zamanlar veş-vüşünü də götürüb avtobus dayanacaqlarından köç etdilər.**

**Səssiz-küysüz...**

**Hara?**

**Kimə?**

**Yaxud kimin cibinə?**

**Bu sistem niyə sıradan çıxdı?**

**Bu monitorların ipi Ziya Məmmədovun əlində idimi?**

**Enerjini Ziya Məmmədovdanmı alırdılar?**

**Hələ 2018-ci ildə Bakı Nəqliyyat Agentliyindən bildirilmişdi ki, çatışmzalıqların aradan qaldırılması üçün Türkiyədən mütəxəssislər dəvət olunub.**

**Mütəxəssislərin axırı necə oldu?**

**Dərdimiz ağırdır, ağır.**

**İntellektuallıq adına nə varsa, hamısının zayı çıxır bu məmləkətdə. İntellektual adamları bir ayrı qaranlığa qərq olur, intellektual idarəetmə sistemi bir ayrı.**

**Hünərin var, intellektual ol!**

**Sonun ya qaranlıqdır, ya da qürbət!**

## *Milyonluq villası, yüz minlik avtomobili olan müğənni itinə qulluqçu axtarır*

**Əvvəlcə bildirim ki, DTX-nin həbs etdiyi Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədova açılan cinayət işində adı keçən Famil Xəlilovun (Veyis Xəlilov) şəxsi münasibəti olduğu müğənnilər - Şəbnəm Tovuzlu və Vəfa Şərifova arasında qalmaqal yaşanmışdı. Başı qalmaqaldan yenicə ayılmış müğənni Vəfa Şərifova yenidən bir qalmaqala imza atıb.**

Beləki, "İtimə sevgi göstərəcək şəxsə 800 manat maaş verəcəyəm". Yazısı ilə günə damğasını vurub.

Adalet.az xəbər verir ki,, bu açıqlamanı müğənni Vəfa Şərifova edib. İfaçı bildirib ki, Moskvada özünə it alıb. Sevimli heyvanını Bakıya özü ilə gətirəcək müğənni iti üçün dayə axtardığını bildirib.



O, bu işi bacaran şəxsə 800 manat aylıq əmək haqqı verəcəyini əlavə edib.

Bəhram Cəfəroğlu adlı yazar saytların birində " Vəfa Şərifovanın itinə baxmağa talibəm..." adlı, felyeton üslubunda bir məqalə də paylaşıb.

Xatırlatma: müğənni Tacir Şahmalıoğlu həmkarı Vəfa Şərifovadan övladının olması barədə yayılan xəbərlərə aydınlıq gətirib.

Sənətçi bildirib ki, sözügedən xəbəri V.Şərofivanın düşmənləri yayıb: "Guya deyirlər ki, Vəfanın yanındakı qız uşağı məndəndir. Ancaq tamamilə yalan xəbərdir. O, Vəfanın qardaşı uşağıdır, mənim də gözümün qarşısında böyüyüb. Mən belə şeylərlə qurtarmışam".

Qeyd edək ki, V.Şərifova 2 il əvvəl ana olub. Uşağın atası Şəmkirdən olan iş adamı Famil Xəlilovdur.

## *Eyvana növbəti dəfə çılpaq çıxan Səmra özünə haqq qazandırdı: "Sürpriz..."*



**"Miss Azerbaijan 2019" gözəllik müsabiqəsinin qalibi məşhur model Səmra Hüseynovadan xəbər var.**

Adalet.az xəbər verir ki, 170 minlik "Instagram" səhifəsində yeni şəkillərini paylaşıb.M Səmra sosial şəbəkələrdə yenə də müzakirələrə səbəb olub.

Belə ki, o, sosial media hesabında yeni foto paylaşıb.Fotoda model çılpaq halda eyvanda paltar asarkən görüntülənib. Bunu görən qonşuları isə ondan polisə şikayət edib.

Bu barədə o, shownews.az-a açıqlamasında deyib: "Ağlıma da gəlməzdi ki, belə şeyə görə şikayət etsinlər. Düşünürdüm ki, qadın həmrəyliyi var. Yox imiş (gülür). Canları sağ olsun. Belə şeyə görə qonşularımdan nə küsərəm, nə də qırğın edərəm. Qonşularımı çox istəyirəm. Bu dəfə məni ancaq büstqaltersiz görüblər, gələn dəfə onlara sürpriz edəcəyəm. Hazır olsunlar".

Qeyd edək ki, şərab içərkən görüntülənən Səmranın fotoları ötən il də belə səs- küyə səbəb olmuşdu. Hər dəfə isə məşhur model açıq-saçıq paylaşımı ilə diqqət çəkməyi bacarıb. Səmranın ən maraqlı şəkli açıq-saçıqlığından çox, qəribə hərəkəti ilə diqqət mərkəzində olub.

Belə ki, o, restoranlarda masaların dolu olduğunu bildirmək üçün stolların üstünə qoyulan "reserved" lövhəsini ayaqlarının arasına tutub.

**Əntiqə Rəşid**

# Ermənilərdən gürcüləri qəzəbləndirəcək açıqlama

## "Samtsxe-Cavaxeti qədim erməni torpağıdır, bizimdir..."

**Regionun "lider gücü", "böyük Ermənistanın" "qəhrəmanları" nı, terrorçuların 30 illik pafoslarını Azərbaycan Ordusu 44 gündə məhv etdi.**

Adalet.az xəbər verir ki, artıq bir ildir ki, ermənilər belindənağır travma alaraq yerlərlə sürünürlər. Çox "revanş, revanş" desələrdə düşdükləri hazır ki, durum onların yenidən ayağa qalmasına, zibilə dönmüş qürurlarını yerdən "dənləmək"lərinə də imkan vermədi. Azərbaycana diş qıcamağın əbəs olduğunu anlayan ermənilər indi də Gürçüstana yumruq göstərib giş qıcayırlar.

Gürcüstan niyə ermənilərin qəzəbinə gəldi, -deyib düşünürkən, sözün həqiqi mənasında 44 günlük müharibədən sonra onların bəzi istiqamətlərdə yenilənən hərəkətləri bizim üçün xoş və gözlənilən olsa da, ermənilər üçün bir o qədər gözlənilməz oldu.

***1. 44 günlük müharibə zamanı Rusiyadan Ermənistana silah-sursat daşıyan hərbi maşınların ərazisindən işləməsinə qadağa qoydu.***

***2. Ötən həftə İran və Ermənistan yük maşınlarının ərazisindən keçməsinə qadağa qoydu.***

***3. Ermənistanın Əməkdar mədəniyyət xadimi, "Karin" ansalmblının rəhbəri Qaqik Qinosyanın Gürcüstana girişi qadağan edilib...***

Əlbəttə , bir tərəfdən baxanda Ermənistanı haqlı da saymaq olar, beləki, məlum müharibədən əvvəl ermənilər terrorçu, insan qanı axıdan bir cəllada Gürcüstan ərazisində heykəl qoymuşdular. Azərbaycanın tənqidlərinə baxmayaraq Gürcüstan adıgedən heykəli sökməmişdi. Qəflətən nə baş verdi ki, gürcülər erməniləri görməzdən gəlir-deyə ermənilər "cin atı"na



minirlər. Axır Gürcüstanın bu hərəkətlərinə dözməyən Ermənistanın siyası şərhçisi Tevos Arşakyan hikkəsini qusmağa, dişi qıcağa fürsət tapdı. Arşakyan gürcüləri ən həsas yerindən vurmağıməqsəd seçərək bildirir ki, , "qədim erməni torpağı" olan "Cavax"ın 99.9%-ni ermənilər təşkil edir: "Gürcustan hakimiyyəti antierməni addımlar atmazdan öncə bir "Cavax"ı (Gürcüstan Respublikasının doqquz diyarından biri Cavaxeti nəzərdə tutulur - red.) yada salsınlar.

"Bu, bizim torpaqlardır.( Aha, şizofreniya özünü biruzə verdi) Tiflis ağlını başına yığmasa, biz "Cavax"dakı erməniləri ayağa qaldıracağıq. Hazırda Gürcüstan Azərbaycana və Türkiyəyə sərf edən addımlar atır, Ermənistanın maraqlarını isə ümumiyyətlə nəzərə almır. Bu, gürcülərə baha başa gələ bilər".

Qeyd edək ki, ermənilərin "özününkü" saydığı Samtsxe-Cavaxeti torpaqlarında qədimdən gürcü xalqının tərkib hissələrindən olan cavaxlar və mesxeti türkləri məskunlaşmışlar. Ermənilər bu diyarlara 1829-cu ildə rusların dəstəyi ilə köçüblər. Britaniyalı siyasi xadim M.F.Praysın yazdığına əsasən, Cavaxetiyə o vaxt 120 min erməni köçürülüb. Bu ərazilərə ikinci böyük erməni miqrasiya dalğası 1877-1878-ci illərdə baş tutub. Bu torpaqların əzəli sakinləri gürcülər və mesxeti türkləri isə 1944-cü ilə qədər Cavaxetidən deportasiya edilmişdi.

Azərbaycanlılar üçün tanış olan bir ssenari bu gün ermənilər tərəfindən gürcü xalqına yazılır.

Xatırlatma: Ötən ilin sentyabrının əvvəllərində ermənilərin gürcülərə və azərbaycanlılara qarşı təxribatına sübut olaraq - tehnowar.ru saytında yayımlanan məqalədə Karen Oqanesyan adlı erməninin mövqeyini göstərmək olar. Karen Oqanesyan fikrini bu cür bildirir:

"Hesab edirəm ki, vaxt gəlib çatmışdır. "Cavaxk" ayağa qalxıb Gürcüstandan ayrılmalı və öz müstəqilliyini elan etməlidir. "Azərbaycanın təcavüzü" zamanı Gürcüstanın Ermənistana qarşı həyata keçirdiyi qeyri-dost hərəkətlərinə cavab olaraq onun ərazisi ilə çəkilmiş dəmir-yol xətləri və boru kəmərləri nəzarət altına alınmalıdır. Dünyanın bütün erməniləri, Türkiyə və Azərbaycanın bütün əmlakının tammiqyaslı şəkildə məhvinə başlamalıdırlar. Türklərlə və ya azərbaycanlılarla biznes münasibətlərinə cəlb olunmuş ermənilər bu münasibətləri dərhal dayandırmalıdırlar".:

**Hesab edirəm Türkiyə də, Azərbaycan da ermənistanın növbəti ilhaqına imkan verməyəcək, Gürcüstanın yanında olacaq.**

**Əntiqə**

## *Məktəbli məktubları dərc olunacaq*

**Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində qalib olanlardan biri də şair, Vətən Müharibəsi iştirakçısı Emin Piridir.**




Layihə rəhbəri olan Emin Pirinin söylədiyinə görə artıq layihənin icrasına başlanılıb.

Bununla bağlı "Zəfər klubu" yaradılıb. Zəfər klubunun yaradılmasında məqsəd istedadlı, yaradıcılıq bacarığı olan şagirdlərin üzə çıxarılmasıdır. Layihə prosesi çərçivəsində məktəblilərin Vətən Müharibəsi zamanı cəbhəyə göndərdiyi məktublar toplanacaq. Eyni zamanda yaradıcı şagirdlərin Vətən Müharibəsi ilə əlaqədar olan hekayələri cəmiyyətə təqdim olunacaq. Bu hekayə və məktublar layihə çərçivəsində müəllifin müharibə gündəliyi ilə birgə kitab halında nəşr olunacaq.

**Cavid Piri**

## *Azərbaycan kubokunun iştirakçıları açıqlandı*




***Azərbaycan Kubokunda 2021/2022-ci illər mövsümünün iştirakçı komandaları müəyyənləşib.***

***Qol.az xəbər verir ki, yarışda Premyer Liqanın 8 komandası ilə yanaşı, 1-ci Divizion təmsilçiləri olan "Zaqatala", "Kəpəz", "Qaradağ Lökbatan" və MOİK mübarizə aparacaq.***

***Ölkə kubokunda püşkatma mərasimi noyabrın 10-da AFFA-nın inzibati binasında keçiriləcək. Tədbir saat 15:00-da başlayacaq və pandemiya qaydalarına riayət olunmaqla baş tutacaq.***

# *Baqqalın qızı, ölkənin yeganə qadın baş naziri, ölümü ilə soydaşlarını sevindirən "Dəmir Ledi"*

**Əfsanəyə dönmüş Marqaret Tetçer - başqa sözlə, dünyanın yaddaşına "Dəmir ledi " kimi yazılmış ən valehedici, mənfur, cazibədar, deyingən, radikal və mühafizəkar lider!**

Bu gün XX yüzilliyin son 20 ilinə öz möhürünü vuran və beynəlxalq aləmdə ən çox tanınan britaniyalı liderin doğum günüdür.

Adalet.az xəbər verir ki, Marqaret Tetçer (qız soyadı Roberts) 13 oktyabr 1925-ci ildə Linkolnşirdə (Qrentem rayonunda) anadan olub. Atası Alfred Robertsin baqqal piştaxtası vardı. Buna baxmayaraq, ticarətlə yanaşı, siyasətə də qoşulur, yerli icmanın işlərində yaxından iştirak edir, bələdiyyə şurasının toplantılarına qatılırdı.

Müəyyən vaxtlarda Qrentemin meri vəzifəsini tutmağa müvəffəq olmuş Alfredin qızları Marqaret və Myuriel ciddi ənənələrə əsaslanan tərbiyə görmüşdülər. Onların təhsil cədvəli həddən artıq sıx qurulmuşdu. Qızlar boş vaxt tapa bilmirdilər. Təkcə onu deyək ki, gələcəyin xanım baş naziri məktəbdə oxuduğu illərdə əlavə olaraq çoxsaylı fakultətiv məşğələlərə də qatılırdı.

M.Tetçer kimya üzrə ali təhsil almışdı.

Dörd il ərzində Oksford Universitetində bu elmin sirlərinə yiyələnmişdi. Təbiət elmləri üzrə bakalavr dərəcəsi almışdı. Bir neçə il tədqiqatçı-kimyaçı kimi fəaliyyət göstərərək dondurma üçün lazım olan emulsifikatorun hazırlanması ilə məşğul olmuşdu.

### *Addım-addım zirvəyə*

Hələ Oksfordda təhsil aldığı müddətdə Marqaret Roberts Mühafizəkarlar Partiyasının universitet assosiasiyasının sədri vəzifəsini tutdu. 1950-ci ilin əvvəlində ölkə parlamentinə düşmək uğrunda mübarizə apardı. İstəyinə 1959-cu ildə çatdı - İcmalar Palatasına üzv seçildi. Öncə Təqaüd və Dövlət Sosial Sığortası Nazirinin parlament müavini vəzifəsini tutdu, sonra tikinti və torpaq sahibkarlığı məsələləri ilə məşğul oldu. Ölkədə ölüm hökmünün saxlanılmasının tərəfdarı kimi çıxış etdi. Həmçinin homoseksualların cinayət məsuliyyətindən azad olunmasına səs verdi.

***1960-cı illərin sonlarında Marqaret beynəlxalq səfər proqramlarına qatıldı və bu çərçivədə ABŞ-dan olan siyasətçilərlə görüşdü. Nəticədə rəsmi müxalifətin kölgə kabinetinin üzvünə çevrildi. 1970-ci ildə hakimiyyətə mühafizəkarlar gələndə Tetçer Tərəqqi və Elm Naziri postunu tutdu və 4 il bu vəzifədə qaldı. Mühafizəkarların məğlubiyyətindən sonra özünü müxalifətin lideri kimi təsdiqlədi.***

1979-cu ildə Marqaret Tetçer Böyük Britaniyanın birinci və hələlik sonuncu qadın baş naziri oldu və üç müddətə bu postda qaldı. Ölkə tarixində 1827-ci ildən bəri belə bir göstəriciyə malik ikinci şəxs tapılmamışdı. Tetçer



eyni zamanda Avropanın ilk qadın baş naziri kimi də tarixə düşdü. 1979-cu ildən 1990-cı ilədək yüksək vəzifədə qaldı.

Baş nazir postunu tutan Tetçer ən müxtəlif sahələrdə islahatlar reallaşdırdı və Britaniyanın tənəzzülünə səbəb saydığı bütün vəziyyətləri dəyişdirməyə çalışdı. İlk növbədə dövlətin iqtisadiyyata və həmkarlar ittifaqlarının işinə qarışması meyllərini, sosial sferaya yönələn xərcləri azaltdı. Bir sıra dövlət müəssisələrinin satışını həyata keçirdi, vergiləri artırdı. Bu, istehsal sanayesində geriləmələr yaratsa da, məhsulların yox, xidmətlərin istehsalına keçidlə nəticələndi. "Dəmir ledi"nin iqtisadi siyasəti ölkədə işsizliyin artmasına gətirdi.

Lakin 1982-ci ildə Argentina ilə baş vermiş Folklend müharibəsindəki qələbəsi populyarlığına müsbət təsir göstərdi. Xanım baş nazirin ən böyük üstünlüyü isə Sovetlər Birliyini kəskin tənqid etmək bacarığıydı. Kommunizm onun üçün sadəcə barışılması mümkün olmayan hadisəyə çevrilmişdi. Buna baxmayaraq Tetçer hesab edirdi ki, kommunist və kapitalist ölkələr qarşılıqlı kompromisslər sayəsində birgə yaşaya bilərlər. Konseptual xarici siyasətə gəlincə, "dəmir ledi" ABŞ yönümlüydü. SSRİ-dən yalnız Mixail Qorbaçovla işləməyin mümkünlüyünə inanırdı.

Məhz elə bu proseslərdən sonra "Dəmir ledi" təxəllüsünü qazanmışdı. Bu adı Tetçerə sovet jurnalistlərindən biri vermişdi. "Qırmızı ulduz" qəzetinin növbəti saylarından birində Tetçer haqda maraqlı məqalə dərc olunur. Müəllif Yuri Qavrilov öz yazısında SSRİ-yə qarşı sərt münasibətinə görə xanım Tetçerə "dəmir dama" deyə müraciət edir. Məqalə tərcümə edilib ingilis qəzetlərində də dərc olunur. "Dəmir dama" "dəmir ledi" ilə əvəzlənir. Britaniyalılar Tetçerə "tank" təxəllüsü vermişdilər.

Ona verilən adlar xanım Marqareti heç də narahat etmirdi. Əksinə "Şəxsi iradlara həmişə sevinirəm. Bu o deməkdir ki, rəqibimin mənə qarşı siyasi arqumenti yoxdur", - deyirdi.

### *Ailəli- uşaqlı Marqaret*

***Marqaret Roberts özünün gələcək həyat yoldaşı Denis Tetçerlə hələ 1949-cu ildə tanış olmuşdu. Bu hadisə Marqaretin Mühafizəkarlar Partiyasına namizədliyinin təsdiqlənməsilə bağlı gerçəkləşmiş rəsmi naharda baş verdi. 1951-ci ildə Marqaretlə Denis ailə həyatı qurdu. 1953-cü ildə cütlüyün əkiz övladları - Kerol və Mark dünyaya gəldi.***

Marqaretdən 10 yaş böyük olan Denisin gələcəyin baş naziri ilə nigahı həyatının ikinci evliliyiydi. Maraqlıdır ki, onun birinci həyat yoldaşının adı da Marqaret olmuşdu. Marqaret Roberts-Denis Tetçer cütlüyü uzun müddət birgə yaşadı və "dəmir ledi" özü haqqında danışarkən bildirmişdi ki, həyat yoldaşının dəstəyi olmadan baş nazir postunu tuta bilməzdi.

2003-cü ildə dünyasını dəyişmiş həyat yoldaşı Denisdən sonra Marqaret on il yaşadı.

Xəstəliyi səbəbindən "dəmir ledi" son zamanlar ictimaiyyət içərisinə çox az-az çıxırdı. Bir neçə dəfə ürək tutması keçirmiş M.Tetçer demensiyadan, yəni qocalıq dövrünün əqli zəifliyindən əziyyət çəkirdi. Britaniyanın yeganə qadın baş nazirinin ölümünə səbəb isə insult oldu.

2013-cü ilin aprelində. London polisi Böyük Britaniyanın keçmiş baş-naziri Marqaret Tetçerin ölümünü bayram edən ən azı 9 aksiya üzvünü həbs etdi. Trafalqar meydanında aksiya iştirakçıları arasında keçmiş şaxtaçı, solçu hərəkatların fəalları və tələbələr olub. Onlar özləri ilə keçmiş baş-nazirin müqəvvasını gətiriblər və onun ətrafında mahnılar oxuyaraq rəqs ediblər.

### *"Dəmir ledi" nin müstəqil Azərbaycana səfəri*

"Dəmir ledi" 1992-ci il sentyabrın 7-8-də Bakıda qeyri-rəsmi səfərdə olub. Marqaret Tetçer həmin vaxt baş nazir deyildi, amma Böyük Britaniyanın bütün dünyada qəbul edilən dövlət adamı, siyasi xadimi idi.

Tetçer sentyabrın 7-də Bakıya səfəri zamanı o zamanki prezident Əbülfəz Elçibəylə görüşüb, sonra "Çıraq" yatağında və perspektivli "Şahdəniz" sahəsində ehtiyatların dəqiqləşdirilməsi və hazırlıq işlərinin aparılması haqqında Azərbaycan hökuməti ilə İngiltərənin "Britiş Petroleum" və Norveçin "Statoyl" şirkətləri arasında sazişin imzalanması mərasimində iştirak edib.

***Tetçerin o zaman yenicə müstəqillik qazanmış Azərbaycana səfəri rəsmi Bakı üçün unudulmaz hadisə olub.***

**O zaman SSRİ-nin dağılmasından cəmi il yarım keçirdi və müstəqil Azərbaycan Respublikası Sovet İttifaqının ən barışmaz əleyhdarlarından biri hesab olunan siyasətçini qəbul edirdi. "Dəmir ledi"nin şərəfinə Bakıdakı "Gülüstan" sarayında ziyafət təşkil edilib. Tetçerə bu səfər zamanı Bakıdan xatirə kimi üzərində dahi şair Nizami Gəncəvinin portreti əks olunmuş kiçik bir xalça da hədiyyə edilib. "Dəmir ledi" məşhur şairin 850 illik yubileyi münasibətilə toxunmuş xalçanı özü ilə İngiltərəya apararaq şəxsi kolleksiyasına daxil edib. Tetçerin o vaxtkı prezident Əbülfəz Elmçibəyə təşəkkürü isə belə olmuşdu: "Prezidentdən Bakıda ən yaxşı mövsümün nə vaxt olduğunu soruşdum, o isə sentyabr və may aylarının olduğunu dedi. Sentyabrda artıq sizə gəldim, mayda da gələcəyəm. Amma bundan əvvəl prezidentinizi Londonda salamlamaq istərdim". Təəssüf ki, bu heç vaxt baş tutmadı.**

***P.S.** Böyük Britaniyanın keçmiş baş naziri Marqaret Tetçerin bütün dünyadakı cəmiyyətlərdə qadına verilən qiyməti bu sözlərlə ifadə edir: "Qadın öz xarakterini göstərəndə "ləçər" deyirlər, kişi göstərəndə "yaxşı oğlan".*

**Ə. Rəşid**

# «Laçınım» qalmaqalı gündəmdən getdi: Əməkdar artist bu dəfə «kişi» oldu

**Uzun illər Məhəbbət Kazımovla səhnə bölüşən müğənni Könül Kərimova da "Laçınım"ın bəstəkarı olduğunu açıqladıqdan sonra nüfuzuna böyük zərbə dəydiyinin fərqində oldu.**

Çünki həm sənət camiəsi, həm də tamaşacı kütləsi bu fikrin əleyhinə oldu.

Belə ki, Könül Kərimovanın bu iddiasının niyə məhz Məhəbbət Kazımovun vəfatından sonra reallaşdırması hamıda təəccüb doğurdu. Həm də Könül xanım heç sözügedən əsəri bircə dəfə də olsa, ifa etməyib. Mövzuya tanınmış müğənni Cavanşir Məmmədov bu sözlərlə möhür vurdu və söhbət gündəmdən düşdü: "Könül Zəngilana, Cəbrayıla, Kəlbəcərə də mahnı yazıb oxusun.

Sual olunur ki, Könül xanım heç sözügedən əsəri ifa edib? Mən eşitməmişəm. Axı bəstəkar yazdığı mahnını ilk özü oxumalıdır.





Görkəmli bəstəkarımız Emin Sabitoğlu ilk dəfə özü ifa edirdi. Necə ola bilər ki, mahnını yazım, deyim Məhəbbət oxu, özüm də bir qıraqda dayanım.

### *Könül Kərimovadan yeni imic..*

"Bizə deyirlər siz kişi kimi, güclü qadınsız, dözümlüsüz. Ona görə də səbirli, dözümlü olmalısınız. Əziz kişilər, gücü də, səbri də, dözümü də sizlərdən alırıq. Siz var olun ki, biz hər zaman sizdən güc alaq. Sizlər olmasanız bizim üçün çətin olar". Adalet.az xəbər verir ki, bu sözləri Əməkdar artist Könül Kərimova "Günün sədası" proqramında deyib. Müğənni verilişə kişi obrazında gəlib. O, parikdən və qrimdən istifadə edərək maraqlı görüntü yaradıb.

Kərimova kişilərə səslənib və göz yaşlarını saxlaya bilməyib:

"Amma sizlər də bizi incitməyin. Qəlbimizi sındırmayın. Bizə toxunmayın, sonda biz zərif qadınıq, ana, bacı və bir ana övladıyıq. Kişi olsaydım, təmiz sevərdim, doğru-düzgün sevərdim (kövrəlir)".

Koronavirus infeksiyasına yoluxmasından danışan Könül "Çox pis anlar yaşadım.

Gördüm ki, yenə də onlara ehtiyacım var. O anda qardaşımı görmək istədim. Kişi olmaq çətin və məsuliyyətlidir" sözlərini əlavə edib.

Xatırlatma: Jurnalist Elnur Baxış İfaçı Könül Kərimovanın verdiyi müsahibəsində "Laçınım" mahnısını onun bəstələdiyinə dair iddiası barədə bu sözləri demişdi: "Könül Kərimova görür ki, efirlərdə ona baxan artıq yoxdur, ona görə yeni gündəm yaratmaq istəyir."

**Əməkdar artistin bu göndərmələri, sətiraltı mesajları kimədir, bunu yəqin ki, bir özü bilir bir də Allahı...**

**Əntiqə**

## *Şahruddinin 40 qurtarışı*



***UEFA DÇ-2022-nin seçmə mərhələsinin 8-ci turundan sonra futbolçuların statistik göstəricilərini açıqlayıb.***

***Qol.az xəbər verir ki, ən yaxşılar arasında Azərbaycan millisinin üzvü Şahruddin Məhəmmədəliyev də var. O, seçmə mərhələdə ən çox qurtarış edən qapıçılar sırasında yer alıb. 27 yaşlı qolkiper meydana çıxdığı 7 oyunda 40 qurtarışla yadda qalıb.***

***O, hazırda bu nominasiyada üçüncü pillədə qərarlaşıb.***

***San Marino yığmasının üzvü Elia Benedettini 44 "seyv"lə birinci, Lixtenşteynin oyunçusu Benyamin Byuhel (43) ikinci sıradadır.***

***Qeyd edək ki, Azərbaycan Serbiyaya 1:3 hesabı ilə uduzub.***

38 nömrəli Texniki Peşə Məktəbi (indiki 1 nömrəli Gəncə Peşə Məktəbi) tərəfindən 28.06.1997-ci il tarixdə Bəşirova (Əliyeva) Samirə İmaməli qızının adına verilmiş AB - 029719 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 130**
Çapa imzalanmışdır: 13.10.2021